Novruz bayramınız mübarək!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№ 11/12 (1007) 15-28 mart 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# İpək Yolu ölkələr arasında əlaqələrin genişlənməsinə xidmət edəcək

Martın 13-də Bakıda "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans Azərbaycan Respublikası Milli Məclisi və ATƏT Parlament Assambleyasının (PA) İpək Yoluna Dəstək Qrupu tərəfindən təşkil edilib.

Konfransın moderatoru **Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev** bildirib ki, konfrans çərçivəsində "Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi", "Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi" və "Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği" mövzularında panel iclaslar keçiriləcək.

Diqqətə çatdırılıb ki, ATƏT PA-da İpək Yoluna Dəstək Qrupu Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılıb. Əgər qrup yaranan vaxt 17 ölkə onun üzvü idisə, bu gün üzvlərin sayı 22-yə çatıb. Bu da Avropa ölkələrinin Azərbaycanın təşəbbüsünə marağının göstəricisidir.

**Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova** konfransda çıxış edərək deyib ki, dinamik inkişaf edən Azərbaycan bu gün regional və qlobal layihələrin reallaşmasında fəal iştirak edir. Ölkəmizin iştirakçısı olduğu və İpək Yolunun mühüm hissəsini təşkil edən Şərq-Qərb, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üçün əməli addımlar atılır.

Bahar Muradova vurğulayıb ki, Azərbaycan İpək Yolu üzərində yerləşən əsas ölkələrdən biridir. Azərbaycan İpək Yolundan faydalanan ölkələrə imkanlar verən bir ölkə rolunu oynayır. Bu yolla bağlı həm Şərqdə, həm də Qərbdə fəaliyyət aparılır. Parlamentarilərin burada iştirak etmələri, bu layihə ətrafında fəaliyyət göstərmələri çox əhəmiyyətlidir. Azərbaycan İpək Yolunun bərpasına investisiya qoyan bir ölkədir.

Milli Məclis sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəhəng layihələr barədə məlumat verib. O, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin




önəmi haqqında danışaraq bunun Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu deyib. Şimal-Cənub Nəqliyyat Dəhlizinin də Azərbaycanın iqtisadi inkişafına zəmanət vəd etdiyini deyən Bahar Muradova ölkəmizin coğrafi mövqeyinin dünya ölkələrinə böyük imkanlar yaratdığını vurğulayıb.

Bahar Muradova bildirib ki, Azərbaycanın İpək Yoluna Dəstək Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etməsi təsadüfi deyil. Azərbaycan bu təşəbbüsü irəli sürməyə mənəvi və siyasi haqqı olan ölkədir.

**ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli** Bakı konfransının mühüm əhəmiyyət kəsb etdiyini deyib. O, bu layihənin həyata keçirilməsi ideyası haqqında danışıb. Bildirib ki, bu ideya irəli sürüləndə bir çox ölkələr layihəni dəstəklədi və ona qoşulmaq qərarına gəldi. Bu layihə ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayacaq.

Georgi Tsereteli iqtisadi, humanitar sahələrin ATƏT üçün önəmli sahələr olduğunu deyib.

"İpək Yolu bizim üçün çox önəmlidir. İpək Yolu elə marşrutdur ki, bu yol boyunca əhali yaşayır. Bu marşrut üzrə vacib şəhərlər yerləşir. Bunlar xalqlarımızın inkişafı baxımından əhəmiyyət kəsb edən şəhərlərdir. Nəqliyyat infrastrukturunu müasirləşdirmək də əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars dəmir yolunu buna gözəl misal kimi göstərmək olar. Ümumiyyətlə, hamımız üçün qarşımızda duran əsas prioritet iqtisadi sahədə müvəffəqiyyət əldə etməkdir", - deyə ATƏT PA-nın sədri qeyd edib.

**Monteneqro parlamentinin sədri İvan Brayoviç** konfransın yüksək səviyyədə təşkil edildiyini bildirib. O, Azərbaycanda yüksək səviyyəli qonaqpərvərliyin şahidi olduğunu söyləyib.

İpək Yolunun önəmindən danışan parlamentin sədri bunun Monteneqro üçün də mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. "Tarix bizə öyrədir ki, körpüləri tikməzdən əvvəl insan öz daxilində də bir körpü yaratmalıdır. Bu da dostluq körpüsü olmalıdır. Əgər bir şəxs özündən başqa heç kimi tanımırsa, o, kasıb qalacaq. Bu, eynilə ölkələrə də aiddir. Monteneqro da bu layihədə önəmli yer tutur. İpək Yolunda iştirak etmək ölkəmiz üçün çox vacibdir. Bu, ən vacib layihələrdən biridir", - deyə İvan Brayoviç bildirib.

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov** deyib ki, səmərəli çoxmodullu nəqliyyat dəhlizlərinin qurulması yolu ilə ticarətin asanlaşdırılması və regiondaxili və transregional infrastruktur uzlaşması ATƏT məkanında davamlı iqtisadi artıma töhfə verə bilər və verəcək. Xüsusilə də ATƏT-in yaxşı idarəetmə və uzlaşma ilə bağlı Hamburq Nazirlər Şurası, o cümlədən nəqliyyatla bağlı bütün müvafiq ATƏT sənədləri və qərarları bu xüsusda əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir.

Nazir qeyd edib ki, Azərbaycanın Xarici İşlər Nazirliyi İpək Yoluna Dəstək Qrupunun yaradılmasını alqışlayır.

Bu gün burada 22 iştirakçı dövlət var. Əlbəttə ki, bu rəqəm arta bilər. Bu qrup ticarət dəhlizlərinin möhkəmləndirilməsi məqsədilə əsas element kimi regional nəqliyyat

## Azərbaycanda özəlləşdirmə prosesində fəal iştirak üçün münbit investisiya mühiti var



"Xarici dövlətləri təmsil edən, o cümlədən Türkiyədən olan potensial investorların Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesində fəal iştirakı üçün ölkədə münbit investisiya mühiti var".

Bu fikri Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) Türkiyə-Azərbaycan İş Şurası İcraiyyə Komitəsini təmsil edən nümayəndə heyəti ilə görüşdə deyib.

Əmlak komitəsindən bildirilib ki, görüşün məqsədi Azərbaycanla Türkiyə arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi çərçivəsində ölkəmizdə həyata keçirilən özəlləşdirmə prosesi və investisiyaların cəlb edilməsi barədə fikir mübadiləsinin aparılması, bu istiqamətdə reallaşacaq birgə layihələrdə iştirak, qarşılıqlı əməkdaşlıq və ortaq çalışmaların mümkünlüyünün müzakirəsi olub.

Komitə sədri əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətdən danışıb. Bildirib ki, həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar nəticəsində Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib. K.Həsənov bu genişmiqyaslı islahatların, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi və idarə edilməsi, daşınmaz əmlak idarəçiliyi sahələrinin ölkə üçün aktuallığını qeyd edib.

Görüşdə ƏMDK tərəfindən həyata keçirilən layihələr və beynəlxalq əməkdaşlıq əlaqələrindən, habelə daşınmaz əmlak idarəçiliyi sahəsində ölkəmizin dünya səviyyəsində əldə etdiyi nailiyyətlərdən bəhs edilib. Diqqətə çatdırılıb ki, ölkədə iqtisadi fəallığı gücləndirmək və özəl təşəbbüslərə dəstək vermək məqsədilə özəlləşdirmənin sürətləndirilməsi mühüm istiqamətlərdəndir. Özəlləşdirilmə prosesinin sürətləndirilməsi isə mövcud iqtisadi inkişafın dinamikliyini təmin edir. Bu istiqamətdə müasir çağırışlara uyğun yeni yanaşmalar tətbiq edilir, elektron xidmətlərin sayı genişləndirilməklə əlçatanlıq artırılır, prosedurlar sadələşdirilir.

Bildirilib ki, özəlləşdirmə prosesində maksimum operativliyi təmin edən açıq və şəffaf hərraclar keçirilir. Bu sahədə innovativ layihələrindən biri olan, funksionallığı ilə seçilən elektron hərracların tətbiqi də Azərbaycanın özəlləşdirmə prosesi tarixində yeni mərhələnin başlanğıcı olub. Sistem dövlət əmlakının şəffaf şəkildə özəlləşdirilməsinə şərait yaratmaqla əhaliyə və investorlara yeni imkanlar açır. Özəlləşdirməyə müxtəlif iqtisadi sahələri əhatə edən səhmdar cəmiyyətlər, kiçik dövlət müəssisələri, qeyri-yaşayış sahələri, eləcə də nəqliyyat vasitələri çıxarılır. Qeyd edilib ki, Türkiyə-Azərbaycan İş Şurası 1991-ci ildə Avrasiya İş Şuraları çərçivəsində təsis edilib. Şura iki ölkə arasında regional iqtisadi və sosial əməkdaşlığı gücləndirmək üçün "əkiz şəhərlər" yanaşması üzrə əlaqələrin qurulması fəaliyyətini həyata keçirir. Məqsəd Türkiyə və Azərbaycandan olan özəl şirkətlər və iş adamlarını toplamaqla ölkə iqtisadiyyatının inkişafını, eləcə də hər iki ölkədən olan investorlar arasında iqtisadi əlaqələrin qurulmasını təmin etməkdir.

Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da iştirak edib.


PAŞA Bank

Azərbaycan xalqını NOVRUZ bayramı münasibəti ilə təbrik edir, hər bir ailəyə səadət və firavan həyat arzulayırıq!

infrastrukturu məsələlərində dialoq üçün platforma rolunu oynayır.

Elmar Məmmədyarov qeyd edib ki, son illər Azərbaycan region boyunca nəqliyyat infrastrukturlarına sərmayə qoymaqla və tikintisini həyata keçirməklə əhəmiyyətli addımlar atıb. Bununla yanaşı, regionlararası ticarət dəhlizlərini uğurla dəstəkləmək və inkişaf etdirmək məqsədilə ölkədə möhkəm davamlı siyasi və makroiqtisadi sabitliyə nail olmaq və inkişaf etdirmək zəruri idi. Bu xüsusda, Azərbaycan bir neçə il əvvəl neft və qaz sənayesində xarici şirkətlər üçün əlverişli, liberal investisiya mühitini təmin etməklə artıq özünü sübut edib.

Nazir bildirib ki, Azərbaycan dövlətlərarası dinc münasibətlər və iqtisadi əməkdaşlıq öhdəliyi ruhu ilə ticarət dəhlizlərini və nəqliyyat infrastruktur layihələrini təşviq edir. Bu məqsədlə biz, həmçinin inklüziv regional əməkdaşlığın siyasi və ticari cəhətdən zəruri arxitekturasını gücləndirmək üçün regional və subregional dövlətlərarası çərçivələr şəbəkəsini də yaratmışıq.

**Monqolustanın xarici işlər naziri Damdin Tsogtbatar** bildirib ki, ölkəsi siyasi və iqtisadi cəhətdən İpək Yolu marşrutunu dəstəkləyir. Monqolustanın dənizə çıxışının olmaması və bu marşrutdan istifadə etməsi onun üçün yaxşı imkanlar yaradır. İpək Yolu, eyni zamanda, çox vacib bir mexanizmdir. Bu, bütövlükdə Avrasiya məkanında istifadə olunması üçün vacib bir marşrutdur.

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi Asəf Hacıyev** çıxışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Yol inkişaf və çiçəklənmə deməkdir" fikrini xatırladıb. Baş katib vurğulayıb ki, əgər 30-40 il bundan əvvəl ölkələrin inkişafı neftlə, qazla ölçülürdüsə, bu gün nəqliyyat, texnologiya ilə ölçülür.

TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin baş katibi Mirçea Çiopraqa TRACECA barədə məlumat verib. Bildirib ki, Avrasiya İpək Yolu ideyasının yenidən gündəmə gəlməsi Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi-TRACECA-da öz təzahürünü tapıb. TRACECA-nın məqsədi təkcə xüsusi iqtisadi maraqlarla məhdudlaşmır, o, həm də zəngin tarixin və mədəniyyətin gələcək üçün qorunub saxlanmasını təmin edir.

Çinin Azərbaycandakı səfiri Vey Cinhua Bakı konfransının əhəmiyyətinə toxunub. O deyib ki, belə tədbirlərin keçirilməsi ölkələrin qarşılıqlı əlaqələrinin inkişafı üçün imkanlar yaradır. İpək Yolu marşrut xətti boyunca ölkələr arasında əlaqələrin genişlənməsinə mühüm töhfələr verə biləcək əhəmiyyətli bir layihədir.

Konfrans işini panel iclaslarla davam etdirib.

**"Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi" mövzusunda birinci panel iclas Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın moderatorluğu ilə keçib.** Bahar Muradova qeyd edib ki, ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın, xüsusilə ticari əlaqələrin möhkəmləndirilməsi çox vacibdir. Bu istiqamətdə müxtəlif tədbirlər təşkil edilir, irimiqyaslı layihələr həyata keçirilir.

Panel iclasda çıxış edən i**qtisadiyyat nazirinin müavini Niyazi Səfərov** Azərbaycanın İpək Yolu layihəsinin həyata keçirilməsində həmişə fəal iştirak etdiyini söyləyib. Layihənin ölkəmizə məxsus hissəsinə investisiyalar yatırılıb. Görülən işlər ölkəmizin bu işə necə önəm verməsinin bariz nümunəsidir.

Bakıda keçirilən bu beynəlxalq konfrans da bunun bir göstəricisidir. Belə nəhəng layihələr ölkələrə iqtisadi fayda verir. Azərbaycan bu kimi irimiqyaslı layihələrdə hər zaman uğurla iştirak edir.

**Rumıniyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü, Assambleyanın vitse-prezidenti Viktor Paul Dobre** iqtisadi əlaqələrin inkişafının ölkələr üçün prioritet məsələ olduğunu söyləyib.

**Belarusun ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Boleslav Pirştuk** qeyd edib ki, sülh və təhlükəsizliyin qorunub saxlanması, sabitliyin davam etdirilməsi ümumi maraqlarımıza xidmət edir. İpək Yolu qarşılıqlı faydalı əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi baxımından çox önəmlidir. Avrasiya məkanında əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur.

**Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü Roman Hayder** İpək Yolu ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini qeyd edib.

**"Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi" mövzusunda ikinci panel Serbiyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Stefana Miladinoviçin moderatorluğu ilə keçib.** Panel iclasda çıxış edən "**Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, "Azərbaycan Dəmir yolları" QSC-nin sədr müavini Hicran Valehov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Tahir Məmmədov** və digərləri çıxış edərək bildiriblər ki, ölkələrin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası, infrastrukturun inkişafı, bu sahənin davamlı maliyyələşdirilməsi, xidmətin keyfiyyətinin artırılması, nəqliyyatdan istifadənin sadələşdirilməsi məsələlərinə önəm verilməlidir. Qeyd olunub ki, bununla bağlı bir sıra beynəlxalq layihələrə qoşulmaq üçün təşəbbüs göstərməlidir.

**"Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği" mövzusunda üçüncü panel iclas Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbərinin müavini Reinhold Lopatkanın moderatorluğu ilə keçib.**

Panel iclasda çıxış edən mədəniyyət və **turizm naziri Əbülfəs Qarayev** ölkəmizdə həyata keçirilən islahatlar barədə danışıb.

O, Azərbaycanda belə beynəlxalq tədbirlərin keçirilməsinin heç də təsadüfi olmadığını deyib. Nazir Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələrin ölkəmizin dünyada nüfuzunu daha da artırdığını vurğulayıb.

**Moldovanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Sergey Sirbu, Bolqarıstanın təşkilatdakı nümayəndə heyətinin rəhbəri Desislava Atanasova** və digərləri çıxış edərək ölkələr arasında qarşılıqlı dialoqa əsaslanan mədəni mübadilənin həyata keçirilməsinin önəmindən danışıblar.

**Beynəlxalq konfransın yekununda Bakı Bəyannaməsi qəbul olunub.**

# "Talassemiyasız həyat naminə"



Martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Talassemiya Mərkəzində olublar.

Birinci vitse-prezident Mehribán Əliyevaya Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilən Mərkəzdə bugünədək görülən işlər, xəstələrin müalicəsi barədə məlumat verilib.

Talassemiya Mərkəzinin direktoru Valeh Hüseynov 2009-cu ildən istifadəyə verilən Mərkəzin bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynadığını, xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstək olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, Talassemiya Mərkəzində aparılan islahatlar, talassemiyalı xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi istiqamətində görülən işlər, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün hazırlanmış tədbirlər talassemiyalı xəstələrin müalicəsində, eyni zamanda, profilaktikasında əhəmiyyətli rol oynayır.

Azərbaycan Prezidentinin imzaladığı müvafiq Fərmana əsasən, Səhiyyə Nazirliyinin tabeliyində olan Respublika Talassemiya Mərkəzinə publik hüquqi şəxs statusu verilməsinin Mərkəzin fəaliyyətinin genişləndirilməsi və talassemiyalı xəstələrlə yanaşı, digər qan xəstələrinə xidmət göstərilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Mərkəzdə müalicə olunan uşaqlarla söhbət edərək, onların müalicəsinin gedişi ilə maraqlanıb.

Mehriban Əliyeva səhiyyə və sosial məsələlərin Heydər Əliyev Fondunun fəaliyyətində prioritet təşkil etdiyini, bu baxımdan da talassemiyalı xəstələrin müalicəsinə, o cümlədən bu xəstəliyin profilaktikası üzrə maarifləndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini verdiyini bildirib.

# Neftçala Sənaye Parkında avtomobil istehsalı zavodu açılacaq

Martın 13-də Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası keçirilib.

İclasda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-İran əlaqələri ortaq dinə, tarixə və adət-ənənələrə əsaslanır və xalqlarımızı sıx əlaqələr birləşdirir. Dövlət başçılarının siyasi iradəsi nəticəsində son 4 ildə Azərbaycan-İran əlaqələri xüsusilə inkişaf edib və yeni mərhələyə qədəm qoyub. Bu müddətdə 10 yüksək səviyyəli görüş, 100-dən çox qarşılıqlı səfər həyata keçirilib. İndiyədək 150-yə yaxın sənəd imzalanıb.



Şahin Mustafayev komissiyanın ötən iclasından keçən dövrdə görülmüş işlər barədə məlumat verib. Qeyd olunub ki, 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 16 faiz artıb, Azərbaycanda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 700-ü ötüb, İranın Azərbaycana yatırdığı investisiyaların həcmi 3,1 milyard ABŞ dollarına çatıb. 2016-cı ildə Neftçala Sənaye Zonasında təməli qoyulmuş birgə avtomobil istehsalı zavodunda işlər tamamlanmaq üzrədir. İran Prezidenti Həsən Ruhaninin martın sonunda Azərbaycana gözlənilən səfəri çərçivəsində avtomobil istehsalı zavodunun açılışı olacaq. Pirallahı Sənaye Parkında İranla birgə reallaşdırılan əczaçılıq zavodunun yaradılması istiqamətində isə işlər davam edir.

Energetika sahəsində "Xudafərin/Qız Qalası" və "Ordubad/Marazad" hidroqovşaqları, 330 kv-luq Muğan (İmişli-Parsabad) elektrik xətti kimi layihələr həyata keçirilib, İrana elektrik satışına dair Çərçivə Sazişi imzalanıb. Neftqaz sahəsində də uğurla əməkdaşlıq edirik.

Azərbaycan-İran əməkdaşlığının mühüm istiqamətlərindən olan "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə işlər intensiv şəkildə aparılır. Azərbaycanda 8,3 kilometr, İranda 1,4 kilometr dəmir yolu, Astara çayı üzərində dəmir yolu körpüsü istismara hazırdır və artıq sınaq qatarlarının hərəkəti həyata keçirilib. Astarada (İran) terminalın təməlinin qoyulması və məhsul anbarlarının tikintisi nəzərdə tutulur. "Şimal-Cənub" nəqliyyat dəhlizinin tərkib hissəsi olan Rəşt-Astara dəmir yolu xəttinin tikintisinin maliyyələşdirilməsinə dair müzakirələr davam edir. 2017-ci ildə Rusiyadan İrana və əks istiqamətdə Azərbaycandan 19 mindən çox TIR keçib, İranda milli daşıyıcılarımızın çəkisi isə 23,2 faiz artıb.

Nazir Şahin Mustafayev qeyd edib ki, ötən müddət ərzində İrandan Azərbaycana gələn turistlərin sayı xeyli artıb. 2016-cı ildə bu göstərici 247 min olduğu halda, ötən il 363 min olub. Azərbaycana gələn turistlərin sayına görə iranlılar 3-cü, "ASAN viza" vasitəsilə viza alan əcnəbilər arasında isə İran vətəndaşları 1-ci yerdədir.

Əməkdaşlığın genişləndirilməsi perspektivlərinə gəlincə, nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, kənd təsərrüfatı, sənaye, ticarət, nəqliyyat, turizm, səhiyyə, bankçılıq və s. sahələrdə əməkdaşlıq üçün böyük imkanlar var. Azərbaycanda İranla birgə avtobuslar, kənd təsərrüfatı texnikası istehsal edilə bilər.

İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, son illərdə Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. O, qeyd edib ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artması müsbət haldır. Bundan başqa, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı üçün potensial böyükdür.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan-İran iqtisadi əməkdaşlığına, ölkələrimiz arasında birgə həyata keçirilən layihələrə, ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.

# Azərbaycan Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında liderliyini saxlayıb



Ötən il Gürcüstan iqtisadiyyatına 1 milyard 861,9 milyon dollar həcmində xarici investisiya qoyulub. Bunun da 482,1 milyon dolları və ya 25,9 faizi Azərbaycanın payına düşür.

Azərbaycan bu göstərici ilə Gürcüstan iqtisadiyyatına sərmayə qoyan xarici ölkələr sırasında birinci yerdədir.

2017-ci ildə Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi də 17 faiz artıb.

Azərbaycan 2012-ci ildən 2017-ci ilin sonunadək Gürcüstan iqtisadiyyatına 3 milyard ABŞ dolları investisiya yatırıb və bu göstəriciyə görə ölkəmiz 2012-ci ildən 1-ci yerdədir.

Gürcüstana ən çox investisiya qoymuş ölkələrin ilk beşliyinə də Azərbaycandan sonra Türkiyə (279 milyon dollar), Böyük Britaniya (250,4 milyon dollar), Niderland (224,3 milyon dollar) və Çex Respublikası (133,8 milyon dollar) daxildir.

2017-ci ildə Gürcüstanda xarici investisiyalar ən çox nəqliyyat və rabitə, maliyyə, tikinti, energetika və daşınmaz əmlak sektorlarına yatırılıb.

Gürcüstanda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin də sayında artım qeydə alınıb. Bu gün Azərbaycanda 300-dən çox Gürcüstan şirkəti qeydə alındığı halda, Gürcüstandakı Azərbaycan şirkətlərinin sayı 1300-ə yaxındır.

Azərbaycanın SOCAR şirkəti Gürcüstanda ən uğurla fəaliyyət göstərən xarici şirkətlərdən biridir.




# Audit normativ sənədlər toplusunun IX cildi çapdan çıxmışdır




1998-ci ildə nəşr olunmasına başlanılmış toplunun IX cildinə 2015-ci il iyulun 1-dən 2017-ci il iyulun 1-dək olan dövrdə və daha əvvəllər qəbul edilmiş, yaxud dəyişiklik və əlavələr olunmuş qanunvericilik aktları və normativ hüquqi sənədlər daxil edilmişdir.

Topluya Azərbaycan Respublikasının 15 qanun və ya mövcud qanunlara dəyişikliklər, Azərbaycan Respublikası Prezidentinin 20 fərmanı və 25 sərəncamı, Nazirlər Kabinetinin 11 qərarı daxil edilmişdir.

Nəşrdə yer alan digər sənədlər isə Auditorlar Palatası tərəfindən həmin dövrdə hazırlanmış və Palata Şurası tərfindən təsdiq edilmiş "Əlaqəli auditor xidmətlərinin göstərilməsinə dair metodik göstəriş", "Turizm müəssisələrində audit aparılmasına dair proqram", "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstəriş", "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə qaydalar", "Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat", "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair təlimat", "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş", "Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş", "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasina dair təlimat", "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair qayda", "Cinayət yolu əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris proqramı", "Auditorların "Öz müştərini tanı" və müştəri qəbulu siyasətinin formalaşdırılmasına dair metodik göstəriş", habelə "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti", "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması", "İdarəetməyə məsul şəxslərlə əlaqə", "Audit sübutu" adlı firmadaxili audit standartları və digər materiallardır.

Toplu auditorlar, təsərrüfat subyektlərinin rəhbərləri və mühasibləri, iqtisadiyyat yönümlü ixtisaslar üzrə təhsil alan tələbə və magistrantlar, habelə müvafiq sahənin tədqiqatçıları üçün nəzərdə tutulmuşdur.

# Sahibkarlar üçün yeni imkan: lisenziyaların alınması sadələşdirilib



14 mart 2018-ci il tarixində Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziyaların və icazələrin elektron qaydada verilməsini təmin edən "Lisenziyalar və icazələr" portalının istifadəyə verilməsi ilə bağlı tədbir keçirilib.

Tədbirdə lisenziya və icazə verən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, informasiya sistemləri vasitəsilə portala inteqrasiya olunan təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin stimullaşdırılması, lisenziyalar və icazələr sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan kompleks islahatlar barədə məlumat verib. Qeyd edilib ki, bu islahatların tərkib hissəsi olaraq, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilib, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilib, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib və prosedurlar sadələşdirilib. Nazir müavini bildirib ki, "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Lisenziyalar və icazələr" portalı hazırlanıb. Ötən ilin dekabrında ilkin təqdimatı keçirilən portal sahibkarların rəy və təklifləri nəzərə alınmaqla təkmilləşdirilib və artıq sahibkarların istifadəsinə verilib.

Artıq www.lisenziya.gov.az ünvanına müraciət etməklə İqtisadiyyat Nazirliyi tərəfindən lisenziyaların elektron qaydada verilməsi üçün portal vasitəsilə müraciətlərin qəbulu, aidiyyəti qurumdan rəyin alınması və nəticələrin rəsmiləşdirilməsi mümkündür.

Portalın iştirakçıları olan dövlət qurumları və sahibkarlar portaldan istifadə etmək üçün elektron imzaya malik olmalıdır. Portalda lisenziya və icazə sistemini tənzimləyən hüquqi aktlar, sahibkarlıq sahəsinə aid hüquqi aktların layihələri, "Sorğu və təkliflər", "Xəbərlər" bölmələri yaradılıb ki, istifadəçilər həmin bölmələrdə yerləşdirilən məlumatlarla tanış ola, portal vasitəsilə lisenziya və icazə verən orqanlara sorğu və təkliflər göndərə, portalda yerləşdirilən hüquqi aktların layihələrinə dair təkliflər verə bilərlər. İstifadəçilər "Haqqımızda" bölməsinə daxil olmaqla yazılı və video təlimatlar vasitəsilə portaldan istifadə qaydaları ilə tanış ola bilərlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin şöbə müdiri Hikmət Ələkbərov çıxışında lisenziyalar sahəsində xidmətlərə vahid məkandan əlyetərliyin artmasına şərait yaratdığını vurğulayıb, bu sahədə İqtisadiyyat Nazirliyi ilə birgə fəaliyyətin davam etdiriləcəyini qeyd edib.

Tədbirdə sahibkarlıq fəaliyyəti növü üzrə lisenziya almaq istəyən şəxslər tərəfindən portal vasitəsi ilə İqtisadiyyat Nazirliyinə müraciətin göndərilməsi və qəbulu prosesi nümayiş olunub.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2 noyabr 2015-ci il tarixindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziya tələb olunan fəaliyyət növləri üzrə lisenziyaların "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb və indiyədək 5311 lisenziya verilib ki, bunun da 2719-u yeni verilən, 2592-si isə müddətsiz lisenziya ilə əvəz edilən və yenidən rəsmiləşdirilən lisenziyalardır.



# Mətbuat milli dəyərlərimizi, milli rəmzlərimizi müdafiə etməlidir

Martın 10-da Bakıda Azərbaycan jurnalistlərinin VII qurultayı keçirilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov qurultayı açaraq bildirmişdir ki, məclisdə iştirak etmək üçün 166 üzv təşkilatdan 241 nümayəndə qeydiyyatdan keçib. Yetərsay var və qurultayımız işə başlaya bilər.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxumuşdur.

Qurultay **"525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin** sədrliyi ilə işini davam etdirmişdir.




**Mətbuat Şurasının sədri Əflatun Amaşov** Azərbaycan jurnalistlərinin VI qurultayından ötən dövrdə görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış etdi. Hesabat dövründə əldə olunan nailiyyətlər, mövcud problemlər və onların həlli yollarından danışan MŞ-nin sədri bildirdi ki, Azərbaycan jurnalistlərinin VI qurultayından bu günədək Şuraya ümumilikdə 3145 şikayət daxil olub. İlkin mərhələdə baxılan 3145 məsələdən 2213-ü katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 932 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinməyindən məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün Şuranın müvafiq komissiyalarına göndərilib. İdarə heyəti hesabat dövründə şikayətlər üzrə komissiyanın 127, reket jurnalistikaya qarşı mübarizə komissiyasının 104 rəyinə əsaslanaraq, ümumiyyətlə, 231 qərar çıxarıb. Qurultaylararası dövrdə MŞ İdarə Heyətinin 35, şikayətlər üzrə komissiyanın 76, reket jurnalistikaya qarşı mübarizə komissiyasının 29, mətbuat ilə dövlət qurumları arasında problemlərin həlli komissiyasının 18 iclası keçirilib.

Əflatun Amaşov deyib ki, bu gün Azərbaycanda mediaya sistemli dövlət qayğısı mövcuddur. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu uğurla fəaliyyət göstərməkdədir. Qurum KİV-in layihələrini maliyyələşdirməklə onların cəmiyyət üçün faydalı təşəbbüslərinə yaşıl işıq yandırır. Ancaq müasir dövr tələb edir ki, mediamız daha da güclənsin, reklamdan, satışdan əldə etdiyi gəliri çoxaltsın. Qarşımızda dayanan növbəti məsələlərdən biri də internet üzərindən yayımlanan media vasitələrinin səmərəliliyinin artırılmasıdır. Bu sahədəki qanunvericilik bazasında xeyli təkmilləşmələr aparılıb. Belə media vasitələri hüquqi münasibətlər sistemində öz yerlərini tuta biliblər. Ancaq onların artan rolundan cəmiyyətimizin inkişafı naminə istifadə etməliyik.

Sonra MŞ-nin nəzarət-təftiş və mandat komissiyalarının hesabatları dinlənilib. Hesabatlar, ümumilikdə, mətbuatın ümumi problemlərini və təşkilati məsələləri əhatə edib.

Sonra məruzələr ətrafında müzakirələr aparılıb.

Qurultayda **Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Milli Məclisin deputatı Aqil Abbas, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, MŞ İdarə Heyətinin üzvü, Orta Asiya və Cənubi Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət, "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov və digərlərinin çıxışları dinlənilib.**

Çıxışlarda Azərbaycanda mətbuatın inkişafı, həm yazılı, həm də elektron medianın maddi-texniki bazasının, jurnalistlərin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışılıb.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qurultayda çıxış edib. Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu demokratik media ənənələrinin Azərbaycanda uğurla inkişaf etdiyini bildirən Əli Həsənov deyib ki, bu gün burada səsvermə keçirildi, özünüz hər şeyi gördünüz. Kimin nə deməsindən asılı olmayaraq, bu gün Azərbaycan mediasından kənara atılmış müəyyən nümayəndələr bu qurultay, burada seçiləcək yeni heyət, sizin jurnalist fəaliyyətiniz haqqında da mənfi rəy formalaşdırmağa çalışacaqlar. Sadəcə olaraq, onlara opponent kimi baxın, çalışın onların sizə hansı formada öz fikirlərini, nifrətlərini ifadə etmələrindən asılı olmayaraq, Azərbaycan xalqına, jurnalistinə uyğun bir formada cavab verin və öz haqqınızı qoruyun. Kənar təsirlərə məruz qalmayın.

Prezidentin köməkçisi deyib ki, ölkədən qaçan bəzi şəxslər bu gün Azərbaycanın rəmzlərini təhqir edirlər. Həmin şəxslərə olduqları xarici ölkələrin pasportları verilərək, Azərbaycana qarşı təlimatlandırılırlar. Buna jurnalistlər xüsusi diqqət yetirməlidirlər. Mətbuat milli dəyərlərimizi, milli rəmzlərimizi müdafiə etməlidir.

Azərbaycanda jurnalistika ilə hakimiyyət arasında gözəl tərəfdaşlıq mühitinin yarandığını vurğulayan Əli Həsənov bildirib: "Bunun nəyi pisdir? Əgər Azərbaycan dövləti vergi ödəyicilərinin və Azərbaycanın milli sərvətlərinin verdiyi imkanlardan onun yaradıcı insanlarının, akademikinin, sənət adamlarının, Azərbaycan cəmiyyətində yaxşı nümunələr formalaşdıran jurnalistikanın və digər kateqoriyadan olan insanların maliyyələşməsi, maddi-mənəvi tələbatının ödənilməsi üçün istifadə edirsə, bunun nəyi pisdir? Nəyə görə öz dövlətindən, milli sərvətindən aldığın pay qəbahət sayılmalıdır, amma antiazərbaycan fəaliyyəti, sizi dövlətinizə, millətinizə qarşı qoymaq cəhdləri ilə Azərbaycana yönələn xarici qrantlardan maliyyələnmək və yaxud da bəhrələnmək normal hal hesab olunmalıdır? Baxın, bu gün sizi ittiham edənlər özləri hansı mənbədən maliyyələşirlər".

Sonra qurultayda Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin tərkibinin genişləndirilməsi məsələsi müzakirə olunub.

Mətbuat Şurasının Nizamnaməsində bu məsələ ilə bağlı təklif səsə qoyularaq qəbul edilib.

Azərbaycan jurnalistlərinin VII qurultayında səsvermə nəticəsində Əflatun Amaşov yenidən Mətbuat Şurasının sədri seçilib.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100


Ceyhun Hacıbəyli


Üzeyir Hacıbəyli

(əvvəli ötən sayımızda)

**"AZƏRBAYCAN" qəzeti**

Öz işini 1918-ci il noyabrın 16-da yenidən bərpa edən Azərbaycan Milli Şurasının, xüsusilə onun Azərbaycan Parlamentinin çağırılması sahəsindəki fəaliyyəti "Azərbaycan" qəzetinin səhifələrində geniş işıqlandırılırdı. Qəzetdə Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin parlamentin çağırılması ilə əlaqədar noyabrın 19-da bütün Azərbaycan əhalisinə müraciəti, Şurada gedən müzakirələrin materialları və qəbul olunmuş qərar da dərc edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də işə başladıqdan sonra qəzet onun fəaliyyətini geniş işıqlandırmış, parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc etmişdir. Bundan başqa, qəzetdə "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və digər daimi rubrikalar da var idi.

"Azərbaycan" qəzetinin səhifələrində Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmmədağa Şahtaxtlı, Adilxan Ziyadxanov, Ələbbas Müznib, Şəfiqə Əfəndizadə, İstanbulda təhsil alan Əmin Abid və b.-nın Azərbaycan tarixinə, mədəniyyətinə, maarifinə, siyasi vəziyyətinə və s. aid silsilə məqalələri dərc olunurdu. Qəzetin səhifələrində Məhəmməd Hadi, Əhməd Cavad və b. şairlərin şeirlərinə də geniş yer verilirdi.

Qəzetdə erməni-daşnak qulduru Andronikin Zəngəzur, Naxçıvan və Qarabağda Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, vəhşiliklər, Ermənistan Respublikası ərazisində yaşayan azərbaycanlıların acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba torpaqlarından qovulması haqqında çoxlu məlumatlar dərc edilmişdi.

1919-cu ilin mayında Azərbaycanın istiqlaliyyətinin elan olunmasının birinci ildönümü, həmçinin 1920-ci il yanvarın 11-də Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə "Azərbaycan" qəzetində çoxlu təbriklər, məqalələr və s. materiallar dərc olunmuşdu. "Azərbaycan" qəzeti 1918-20-ci illər ərzindəki saylarında Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirmişdir.

Qeyd edildiyi kimi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Cümhuriyyət hökumətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktorlarından biri Ceyhun bəy Hacıbəyli olmuşdur. 1918-ci il noyabrın 28-dən Azərbaycan dilində olan nömrələr C.Hacıbəylinin, rus dilindəki nömrələr isə Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə çıxmışdır. Paris sülh konfransında (1919-20) iştirak etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir kimi "Azərbaycan" qəzetinin redaktoru C.Hacıbəyli də daxil edilmişdi. Bu səbəbdən Üzeyir bəy Hacıbəyli 1919-cu il yanvarın 16-da çıxmış 89-cu sayından başlayaraq "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. Bu vaxtdan "Azərbaycan" qəzeti "Müvəqqəti müdir: Üzeyir bəy Hacıbəyli" imzası ilə buraxılmış və bu imza qəzetin həmin il 30 iyun tarixli 215-ci sayına qədər davam etmişdir. Üzeyir bəy iki aylıq müalicədən qayıtdıqdan sonra, 1919-cu ilin sentyabrından etibarən yenidən "Azərbaycan" qəzetində işə başlamış və 1920-ci il aprelin 27-nə kimi qəzetin müdiri işləmişdir.

Üzeyir bəy Hacıbəyli qəzetə rəhbərlik etməklə, onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmışdır. "Azərbaycan"dakı fəaliyyətində Üzeyir bəy Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və milli məsləkli publisist kimi göstərmişdir. Qəzetin səhifələrində Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə (xüsusilə, neft sənayesinə), maarif və mədəniyyətinə və s. aid 100-dən çox məqaləsi dərc olunmuşdur. Üzeyir bəy Hacıbəyli redaktor işlədiyi müddətdə Azərbaycan və onun ətrafında baş verən hadisələri qəzetin səhifələrində əks etdirməklə yanaşı, Azərbaycan Cümhuriyyəti Parlamentinin, Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəylinin hökumətlərinin yeritdiyi siyasi xətti qızğın müdafiə edirdi.

"Bir yaş" məqaləsində Üzeyir bəy Hacıbəyli yazırdı: "Bu gün istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür...

***Bir yaşlı dövlətimiz - gələcəkdə - yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahı və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir".***

***"...ÖLMƏK VAR, DÖNMƏK YOXDUR. Bu əziz bayram günü sidq dil ilə "yaşasın müstəqil Azərbaycan" deyənlər əmin olmalı: onu müstəqil yaşatmağa qadir olarlar" ("Azərbaycan", 1919, 28 may).***

***"Qara təhlükə" məqaləsində Üzeyir bəy həyəcanla bildirirdi: "İstiqlalımızın bir ilinin bayramını yenicə keçirmişdik ki, üfüqümüzdən qəflətən nümayan olan bir qara əl haman istiqlalımızı qırmaq və bizi murdar pəncəsi altında əzmək xəyalilə şimalımızdan uzanmağa başladı".***

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində "Azərbaycan" qəzetinin dərc olunmuş materialları ilk mənbə kimi əhəmiyyəti böyükdür. "Azərbaycan" qəzeti öz istiqlalına qovuşmuş Azərbaycan xalqının milli oyanışında çox mühüm rol oynamışdır.

Əd.: Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001

# Azərbaycan İşgüzar Mərkəzinə "xüsusilə mühüm investisiya layihəsi" statusu verilib

Həştərxanda tikilməkdə olan Azərbaycan İşgüzar Mərkəzinə "xüsusilə mühüm investisiya layihəsi" statusu verilib.




Həştərxan vilayətində "xüsusilə mühüm investisiya layihəsi" statusu ümumi investisiya həcmi təxminən 27 milyard rubl olan 11 layihəyə verilib. Bu status bir sıra üstünlükləri, o cümlədən təşkilatların gəlirinə və əmlakına aşağı vergi tarifi hüququnu təmin edir.

İnvestisiya həcmi 200 milyon rubldan çox olan Azərbaycan İşgüzar Mərkəzinin, habelə investisiya həcmi 300 milyon rubldan çox olan örtülü buz meydançasının tikintisi də ötən il belə layihələr sırasına daxil edilib.

Azərbaycan İşgüzar Mərkəzinin açılışı bu ilin aprel ayına nəzərdə tutulub.

# Посол: Производственная кооперация между Беларусью и Азербайджаном должна выйти на новый уровень



Беларусь расширяет сотрудничество с Азербайджаном. Об этом заявил посол Беларуси в Азербайджане Геннадий Ахмарович.

В Беларуси существуют все предпосылки для конструктивного сотрудничества с Азербайджаном. Производственная кооперация между двумя странами должна выйти на новый уровень. Стороны заинтересованы в наращивании товарооборота.

Белорусская сторона изыщет возможности увеличения экспорта продукции машиностроения, деревообработки, нефтепродуктов, продовольствия и медикаментов в Азербайджан.

За прошлый год экспортные поставки Беларуси в Азербайджан были увеличены на десять процентов.

# В Литве проведено мероприятие «Бизнес-возможности с Азербайджаном»

Посольство Азербайджана в Литве совместно с Центром бизнес-консультаций в Алитусе провело в этом городе мероприятие на тему «Бизнес-возможности с Азербайджаном». В мероприятии приняли участие руководители более 30 компаний и предприятий, действующих в южном регионе Литвы.

Временный поверенный в делах Азербайджана в Литве Атеш Гырхыев предоставил информацию о динамичном развитии экономики нашей страны, успехах республики, достигнутых за последние годы, отметив благоприятную среду, созданную для зарубежных инвесторов. А.Гырхыев рассказал о действующих в стране промышленных парках и кварталах, свободной экономической зоне, проведенных в течение года международных выставках и ярмарках.



На мероприятии был продемонстрирован видеоролик, отражающий социально-экономическую ситуацию Азербайджана, в том числе экспортный потенциал страны.

Были даны ответы на вопросы бизнесменов. На мероприятии присутствовали представители Вильнюсской палаты торговли, промышленности и ремесел, руководители Литовского совета малого и среднего бизнеса, директора и сотрудники действующих в регионе заводов и фабрик.

Посольство Азербайджана планирует провести аналогичные бизнес-семинары и в других регионах Литвы.




# Ожидается визит генерального секретаря ОПЕК в Баку

Ожидается визит генерального секретаря Организации стран-экспортеров нефти (ОПЕК) Мохаммеда Баркиндо в Баку.

Как сообщили АЗЕРТАДЖ в пресс-службе Министерства энергетики, визит запланирован на 17-19 марта.

В рамках визита планируется обсуждение вопросов сотрудничества Азербайджана и ОПЕК, укрепления этих отношений в рамках Венского соглашения ОПЕК+.




# Новруз – праздник весны

Новруз – это важный праздник и одна из замечательных народных традиций азербайджанцев. Новруз – праздник весны, наступления нового года. Азербайджанцы перед празднованием Новруза, отмечают четыре дня зимы, которые символизировали окончание Старого и наступление Нового года. Речь идет о четырех предпраздничных средах:

– *Су Чершенбе (среда на воде);*

– *Одлу Чершенбе (среда на огне);*

– *Торпаг Чершенбе (среда на земле);*

– *Ахыр Чершенбе (последняя среда).*

***По народным поверьям, в первую среду*** обновлялась вода, стоячие воды приходили в движение. Во вторую – обновлялся огонь, в третью – земля, а уже в четвертую среду ветер раскрывал почки деревьев, и по народным приметам, наступала весна.

Праздник Новруз - это возможность провести много интересных обрядов и ритуалов.

Вот один из них. например. Все члены должны перепрыгнуть через горящий костер, произнося при этом особое заклинание. После того как костер погаснет, девушки и юноши собирают золу и высыпают ее на окраине селения или на дорогу. Очистительный огонь костра символически сжигает все прошлые неудачи, даже воспоминание о которых удаляется из памяти и из дома вместе с золой.

Согласно ещё одному поверью, чтобы незамужние девушки были счастливы, в кувшин с водой днем бросают «черные» монеты – знаки несчастья, а вечером, перед закатом солнца, эту воду выплескивают вместе с монетами на улицу.

До наступления темноты в день «ахыр чершенбе» девушки и юноши обычно подходили к дверям соседей и «подслушивали» их разговор, а затем, исходя из первых услышанных слов, делали выводы об исполнении их желаний.

Среди предпраздничных обрядов, основным считается обряд приготовления ритуальной пищи сэмэни (проросшая в тарелке пшеница), которая символизирует плодородие и имеет культовое значение. Церемония приготовления сэмэни сопровождается ритуальными песнями и танцами.



Последний день старого года также считается у азербайджанцев особым праздником. В предпраздничный день все семейство собирается дома.

А в последнюю ночь старого года все члены семьи обрызгивали друг друга водой перед сном, чтобы «смыть» все невзгоды старого года.

И вот наступает сам праздник. Все надевают новую одежду и начинаются гуляния. В дни празднования Новруза никто не работал.

Праздник Новруз отмечают в Азербайджане 21 марта, и этот день является нерабочим днем. В первый день Нового года принято вставать рано. Там, где это возможно, люди стремятся пойти к реке или роднику: умываются, брызгают водой друг на друга. Вода — символ чистоты и свежести. Там же угощают друг друга сладостями.

Праздничный стол в этот день – особенный. На столе обязательно должна стоять пища, состоящая из семи блюд, название которых начинается с буквы «с». Это сумах (приправа), сюд (молоко), сирке (уксус), сэмэни, сабзи (зелень) и т. д. Кроме перечисленных блюд на стол ставятся зеркало, свеча и крашеное яйцо. Все перечисленное имеет символическое значение. Свеча – огонь, оберегающий человека от злых духов. Яйцо и зеркало символизируют завершение старого года и наступление первого дня нового. Азербайджанцы ставят крашеное яйцо на зеркало. И как только яйцо качнется – наступает Новый год. Все сидящие за столом начинают поздравлять друг друга.

Как правило, в праздничные дни входные двери не запираются. Это значит, что семья дома и рада встретить гостей. А дети в эти дни посещают знакомых и родственников, с мешочками, куда те кладут праздничные подарки.

В первый день Нового года в каждой семье всю ночь должен гореть свет, знак благополучия. Древний праздник Новруз байрамы – самый древний и красивый праздник азербайджанцев.

# A-QROUP SIĞORTA ŞİRKƏTİ ASC-NİN 01/01/2017-31/12/2017-ci il TARİXİNƏ BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Torpaq, tikili və avadanlıqlar** | | **702 216,43** | **709 476,40** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | | |
| **Qeyri-maddi aktivlər** | | **122 657,55** | **110 391,79** |
| **Təxirə salınmış vergi aktivləri** | | | |
| **Uzunmüddətli debitor borcları** | | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair aktivlər** | | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | **824 873,98** | **819 868,19** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Ehtiyatlar** | | **20 693,24** | **24 570,46** |
| **Debitor borcları:** | | **5 131 877,64** | **7 937 596,20** |
| birbaşa sığorta üzrə | | 4 537 920,51 | 6 861 339,40 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | | **17 095,67** | |
| - təkrarsığortaçı üzrə | | | |
| - təkrarsığortalı üzrə | | 17 095,67 | |
| asılı təşkilatlar üzrə | | | |
| büdcə üzrə | | 570 160,62 | 1 056 126,87 |
| iddia tələbləri üzrə | | | 9 885,68 |
| işçi heyəti üzrə | | 6 700,00 | 6 300,00 |
| sığortalılara verilən borclar üzrə | | | |
| sair debitorlar | | 0,84 | 3 944,25 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | | **16 182 578,37** | **13 225 353,88** |
| kassa | | 3 728 402,83 | 4 324,51 |
| hesablaşma hesabı | | 2 099 951,98 | 190 577,23 |
| valyuta hesabı | | 2 386 073,56 | 9 043 169,47 |
| depozit hesablar | | 7 968 150,00 | 3 570 210,00 |
| sair pul vəsaitləri | | | 417 072,67 |
| **Qısamüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | **965 955,89** | **974 852,03** |
| həyat sığortası sahəsi üzrə | | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | 965 955,89 | 974 852,03 |
| **Sair qısamüddətli aktivlər:** | | **6 512,75** | **599,34** |
| gələcək hesabat dövrlərinin xərcləri | | | |
| verilmiş avanslar | | | |
| təhtəl hesablar | | 6 512,75 | 599,34 |
| **Sair aktivlər** | | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | | **22 307 617,89** | **22 162 971,91** |
| **CƏMİ AKTİVLƏR** | | **23 132 491,87** | **22 982 840,10** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I . KAPİTAL** | | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | | **8 005 750,00** | **10 005 250,00** |
| **Emissiya gəliri** | | **998 013,10** | **998 013,10** |
| **Geri alınmış kapital (səhmlər)** | | | |
| **Kapital ehtiyatları:** | | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | | |
| digər kapital ehtiyatları | | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | **2 818 936,82** | **1 374 534,56** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 2 866 983,03 | 1417457,04 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | -48046,21 | -42922,48 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| Elan edilmiş dividendlər | | | |
| ***Cəmi kapital*** | | **11 822 699,92** | **12 377 797,66** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Sığorta ehtiyatları:** | | **10 631 615,68** | **10 134 969,76** |
| Həyat sığortası sahəsi üzrə: | | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | 10 631 615,68 | 10 134 969,76 |
| **Qarşısıalınma tədbirləri fondu** | | **-212,74** | **-212,74** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | | |
| **Kreditor borcları:** | | **905,96** | |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | | |
| sosial sığorta və təminat üzrə | | 905,96 | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | | |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | **262 323,36** | **336 602,19** |
| təkrarsığortaçı üzrə | | 262 323,36 | 336 602,19 |
| təkrarsığortalı üzrə | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | **0,54** | |
| **Sair öhdəliklər** | | **402 121,71** | **116 846,47** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | | **11 296 754,51** | **10 588 205,68** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | | |
| **Kreditor borcları:** | | **13 037,44** | **16 836,76** |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | | |
| sosial sığorta və təminat üzrə | | | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | 13 037,44 | 16 836,76 |
| **Sair qısamüddətli öhdəliklər:** | | | |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair öhdəliklər** | | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | | **13 037,44** | **16 836,76** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | | **11 309 791,95** | **10 605 042,44** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **23 132 491,87** | **22 982 840,10** |
| Qeyd: Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | | |
| * Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir. | | | |

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **13044879,46** |
| birbaşa sığorta üzrə sığorta haqları | 12684987,79 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 224843,56 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 135048,11 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **505542,06** |
| **İnvestisiya gəlirləri üzrə** | **285367,13** |
| **Subroqasiya gəlirləri** | **-25783,28** |
| **Sair gəlirlər** | **32660,44** |
| **CƏMİ GƏLİRLƏR** | **13842665,81** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **9585770,54** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 8113867,82 |
| qaytarılan sığorta haqları üzrə | 287229,09 |
| tənzimləmə xərcləri | -4027,26 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1188700,89 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 1800021,38 |
| **Sair xərclər** | 685052,59 |
| **CƏMİ XƏRCLƏR** | **12070844,51** |
| **Maliyyə mənfəəti (zərəri)** | 1771821,3 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 1771821,3 |
| **Mənfəət vergisi** | 354364,26 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 1417457,04 |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | | 736000 |
| Əlavə dəyər vergisi | | |
| Gəlir vergisi | 93149,83 | 93149,83 |
| Əmlak vergisi | 6137,52 | 6137,52 |
| Torpaq vergisi | | |
| Aksizlər | | |
| Ödəmə mənbəyində vergi (4%) | | |
| Sair vergilər | 109313,94 | 109313,94 |
| Sosial sığorta və təminat | 207693 | 212542,18 |
| Məcburi ödənişlər (0,3%) | 37186,42 | 37186,42 |
| İqtisadi sanksiyalar | | |
| **Rəhbər:** | | |
| **Baş mühasib :** | | |

CASPIAN CONSULTING & PARTNERS

Sapphire Plaza, 5th floor
Nizami str.1/3, Baku, Azerbaijan
Phone: (+994 12) 505 58 47/48
Fax: (+994 12) 505 58 48
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"A-Qroup Sığorta Şirkəti" ASC İdarə heyətinin sədri Anar Bayramov cənabına**

**Rəy**

Biz **"A-Qroup Sığorta Şirkəti" ASC-nin** 31 dekabr 2017-ci il tarixinə vergi hesabatlarını, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülassəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Şirkətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq audit standartlarına (ISA) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının apardığımız auditə aid olan etik normalara uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirməmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə və vergi hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə və vergi hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə və vergi hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə və vergi hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyəvə vergi hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə və vergi hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Ünvan: Bakı ş. Nizami küç. 1/3

Direktor/Auditor: Elnurə Abdinova

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət Caspian Consulting and Partners Limited Liability Company Azerbaijan Republic

Tarix: 05.02.2018

# TAP-ın Yunanıstan və Albaniya marşrutunun 93 faizi təmizlənib

Azərbaycan qazının Avropaya nəqli üçün inşa olunan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutunun 93 faizi təmizlənib.

Bu barədə TAP-ın rəsmi internet səhifəsində məlumat yayılıb.

Bildirilib ki, bu, iki ölkədə boru kəmərinin 765 kilometrlik marşrutunun 710 kilometri deməkdir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamıdır, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhədində yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan – 550 kilometr, Albaniya – 215 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə – 37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# "Ümid" yatağında növbəti quyunun istismara verilməsi nəzərdə tutulub



SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, SOCAR ilk dəfə olaraq öz gücü hesabına 2012-ci ildə "Ümid" qaz-kondensat yatağını sənaye işlənməsinə daxil edib. Hazırda yataqda 2 istismar quyusu fəaliyyət göstərir. Bu ilin oktyabr ayında qazma işləri aparılan növbəti quyunun istismara verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, "Ümid" yatağı dövlət müstəqilliyi bərpa edildikdən sonra kəşf olunan ilk yataqdır.

# SOCAR: Yeraltı qaz anbarlarındakı qazın həcmi 3 milyard kubmetrə çatdırılacaq

**Yaxın illərdə anbarlardakı qazın həcminin 5 milyard kubmetrə çatdırılması hədəflənir.**

Payıza kimi yeraltı qaz anbarlarındakı qazın həcmi təqribən 3 milyard kubmetrə çatdırılacaq.

Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında SOCAR-ın ictimaiyyətlə əlaqələr üzrə rəsmisi İbrahim Əhmədov deyib.

"Qaz anbarları hər bir ölkə üçün enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. Hesab olunur ki, ölkədə qaz anbarlarının həcmi ümumi ölkədaxili istehlakın 20 faizindən aşağı olmamalıdır. Bəzi ölkələr öz qaz anbarlarını həmin minimum hədda çatdırmağa çalışırlar. Azərbaycanda isə qaz anbarlarının həcmi 3,5 milyard kubmetr civarındadır, bu da ölkənin ümumi təbii qaz tələbatının 30-33 faizini təşkil edir. Azərbaycanın iki böyük yeraltı qaz anbarı var. Qaz anbarları əsasən ilin isti çağında doldurulur. Yaz-yay fəslində qışdan qalan qalığın üstünə əlavə qaz həcmləri vurulur və növbəti qış aylarında istehlakçılara verilir. Ötən il Qaradağ yeraltı qaz anbarına 1,145 milyard kubmetr, Qalmaz anbarına isə 792 milyon kubmetr civarında əlavə təbii qaz həcmi vurulub", - deyə SOCAR-ın rəsmisi bildirib.

O qeyd edib ki, qaz anbarlarının tutumu ölkənin daxili ehtiyacına tələb olunan həcmdən artıq olanda izafi anbar tutumu idxal-ixrac əməliyyatları üçün istifadə oluna bilər. Beləliklə, Azərbaycanın geniş qaz anbarlarına malik olması beynəlxalq ticarət əməliyyatlarında rəqabət üstünlüyü yaradır. Belə olan halda yay aylarında üçüncü tərəflərdən əlavə qaz alınır və tələbatın yüksək olduğu qış aylarında daha münasib şərtlərlə ixrac olunur.

"SOCAR Azərbaycanda öz imkanları ilə hasil etdiyi təbii qazın hamısını məhz daxili tələbatın qarşılanması üçün ölkədaxili qurumlara – "Azərenerji" ASC və "Azəriqaz" İB-yə ötürür. Qaz anbarlarının izafi həcmindən isə kommersiya məqsədilə istifadə edilir. Üçüncü tərəflərdən əlavə qaz həcmləri alınır. İdxal olunan qaz əsasən tələbatın yüksək olduğu qış aylarında ixrac edilir. Beləliklə, şirkət özünün çıxardığı təbii qazın hamısını ölkə daxilinə yönləndirdiyinə baxmayaraq, üçüncü tərəflərlə ticarət əməliyyatlarını həyata keçirir, bunun sayəsində ölkəyə əlavə gəlir qazandırır və strateji bazarlarda öz mövqeyini təmin edir", - deyə o bildirib.

# "XALQ SIĞORTA" ASC-NİN 01.01.2017 VƏ 31.12.2017-Cİ İL TARİXLƏRİNƏ BALANS HESABATI

*manatla*

| AKTİVLƏR | 01.01.2017-ci il tarixinə | 31.12.2017-ci il tarixinə |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **322 539,68** | **760 129,82** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | **765 475,26** | **705 199,01** |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **5 612 100,00** | **6 165 345,00** |
| dövlət qiymətli kağızları | 5 312 100,00 | 5 865 345,00 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 300 000,00 | 300 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **6 700 114,94** | **7 630 673,83** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **10 870,83** | **0,00** |
| **Debitor borcları:** | **3 174 594,31** | **3 892 674,99** |
| birbaşa sığorta üzrə | 2 748 624,94 | 3 083 425,05 |
| təkrarsığorta əməliyyatları üzrə: | 35 594,60 | 35 235,57 |
| *- təkrarsığortaçı üzrə* | *22 680,67* | *22 680,67* |
| *- təkrarsığortalı üzrə* | *12 913,93* | *12 554,90* |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 389 251,81 | 700 073,94 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | 802,56 | 39 750,90 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 320,40 | 34 189,53 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **43 878 623,48** | **40 770 208,21** |
| kassa | 21 463,10 | 9 357,08 |
| hesablaşma hesabı | 35 661,36 | 26 963,39 |
| valyuta hesabı | 162 279,02 | 2 481 529,20 |
| depozit hesablar | 43 659 220,00 | 38 252 250,00 |
| sair pul vəsaitləri | 0,00 | 108,54 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **0,00** | **0,00** |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **369 348,55** | **554 663,27** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 369 348,55 | 554 663,27 |
| **Sair qısamüddətli aktivlər:** | **5 649,93** | **67 016,77** |
| gələcək hesabat dövrlərinin xərcləri | 0,00 | 67 016,77 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | 5 649,93 | 0,00 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **47 439 087,10** | **45 284 563,24** |
| **CƏMİ AKTİVLƏR** | **54 139 202,04** | **52 915 237,07** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 01.01.2017-ci il tarixinə | 31.12.2017-ci il tarixinə |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **39 388 700,00** | **44 709 500,00** |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **5 369 965,82** | **1 510 985,51** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 5 333 527,78 | 1 507 364,18 |
| Gəlirdən çıxılmayan xərclər | | -45 544,49 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 36 438,04 | 49 165,82 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **44 758 665,82** | **46 220 485,51** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **9 229 419,31** | **6 336 651,47** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 9 229 419,31 | 6 336 651,47 |
| **Qarşısıalınma tədbirləri fondu** | **0,00** | **60 958,34** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | **0,00** | **0,00** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **135 510,77** | **233 442,06** |
| təkrarsığortaçı üzrə | 135 510,77 | 233 442,06 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **9 364 930,08** | **6 631 051,87** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 0,00 | **24 733,57** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 0,00 | 24 733,57 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **38 966,12** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 38 966,12 |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | 15 606,14 | 0,00 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **15 606,14** | **63 699,69** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **9 380 536,22** | **6 694 751,56** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **54 139 202,04** | **52 915 237,07** |

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **7 799 048,34** |
| birbaşa sığorta üzrə sığorta haqları | 7 785 643,59 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 4 408,11 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 8 983,31 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 13,33 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **3 078 082,56** |
| **İnvestisiya gəlirləri üzrə** | **1 172 529,71** |
| **Subroqasiya gəlirləri** | **93 299,88** |
| **Sair gəlirlər** | **58 042,20** |
| **CƏMİ GƏLİRLƏR** | **12 201 002,69** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **5 116 688,40** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 3 986 847,26 |
| qaytarılan sığorta haqları üzrə | 293 095,70 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 689 670,19 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 24 530,97 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 122 544,28 |
| **İşlərin aparılması xərcləri** | **4 039 602,89** |
| **Sair xərclər məzənnə fərqi** | **1 160 506,18** |
| **CƏMİ XƏRCLƏR** | **10 316 797,47** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **1 884 205,22** |
| **Mənfəət vergisi** | **376 841,04** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 507 364,18** |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 376 841,04 | 625 579,64 |
| Əlavə dəyər vergisi | 9 123,00 | 9 123,00 |
| Gəlir vergisi | 285 296,45 | 237 433,11 |
| Əmlak vergisi | 1 397,99 | 267,04 |
| Torpaq vergisi | | |
| Aksizlər | | |
| Ödəmə mənbəyində vergi (4%) | 8 365,66 | 2 604,59 |
| Sair vergilər | 6 508,89 | 6 091,69 |
| Sosial sığorta və təminat | 453 328,96 | 453 078,26 |
| Məcburi ödənişlər (0,3%) | 61 803,86 | 61 744,32 |
| İqtisadi sanksiyalar | | |

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı şəhəri,
Q.Qarayev prospekti 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

**MÜSTƏQİL AUDİTORUNHESABATI**

**"Xalq Sığorta" Açıq səhmdar cəmiyyətinin səhmdarlarına**

**Rəy**

Biz"Xalq Sığorta" Açıq səhmdar cəmiyyətinin (bundan sonra Cəmiyyət)31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Bizauditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir.Biz Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarınauyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru** **Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**

**07 mart 2018-ci il**

# AtaBank-dan innovativ addım

Müasir dövrdə qabaqcıl iş adamı bütün əlaqələrini internet üzərindən qurmaq məcburiyyətindədir. Hər zaman işini onlayn idarə edə bilmək, daim yazışmalar aparmaq və hər şeydən xəbərdar olaraq, vaxtında qərarlar qəbul edə bilmək müasir biznesin əsas şərtlərindən biridir. Müştərilərinə göstərdiyi yüksək xidmət səviyyəsi ilə seçilən AtaBank hər zaman onlayn qalaraq bir addım öndə olmaq məqsədi ilə bütün müştərilərinə yeni Ata Wi-Fi xidmətini təklif edir.

Artıq AtaBank-ın Bakı şəhərində yerləşən istənilən filialında müştərilər sürətli internetdən istifadə etmək imkanı əldə edə biləcəklər. Bunun üçün filial daxilində olarkən sadəcə Wi-Fi siyahısında Ata Wi-Fi seçərək, qaydalarla tanış olmaq, qaydalarla razı olduğunuzu bildirmək, telefon nömrənizi qeyd etmək və nəhayət nömrənizə sms vasitəsi ilə göndərilən PİN kodu müvafiq bölümə daxil etmək lazımdır.




1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı, universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında 31 filial və şöbəsi vasitəsilə korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# AtaBank-dan verilmiş kreditlər üzrə güzəştli kampaniya

Daima müştərilərinin qeydinə qalan və Azərbaycan xalqına töhfələrini verən AtaBank Novruz Bayramı münasibəti ilə müştərilərinə bayram sevinci yaşatmaq məqsədilə 20 dekabr 2015-ci il tarixinədək verilmiş və ya restrukturizasiya edilmiş, əsas borc məbləği 100.000 ABŞ dollarına qədər olan kreditlərə güzəşt kampaniyasına başlayıb. Kampaniya




lombard və əmanət girovu ilə verilmiş kreditlərə şamil olunmur.

Kampaniya 30.03.2018-ci il tarixinə qədər davam edəcək. Ətraflı məlumat üçün banka müraciət edə bilərsiniz.

# AtaBank-dan növbəti Novruz kampaniyası




AtaBank Novruz bayramı kampaniyası çərçivəsində Lider təcili pul köçürmə sistemi üzrə komissiyanı endirdi. 30.04.2018-ci il tarixinədək davam edəcək kampaniyada xidmət haqqı üzrə komissiyanın minimum həddi 0,9%-dək endirildi. Xatırladaq ki, "Pul köçürənə/alana mobil danışıq dəqiqələri hədiyyə" aksiyası hələ də davam edir. Aksiyanın şərtlərinə əsasən, AtaBank-ın filial və şöbələrində ən azı 1000-2000 AZN/EUR/USD və ya 58 min RUB-dan yuxarı pul köçürənə və ya alana 1 manatlıq, 2001 AZN/USD/EUR və ya 120 min RUB-dan yuxarı pul köçürənə və ya alana 2 manatlıq, 3501 AZN/EUR/USD və ya 200 min RUB-dan yuxarı pul köçürənə isə 3 manatlıq mobil danışıq dəqiqələri hədiyyə olunur.

# "AtaTravel" işgüzar qadınlar üçün təlim keçirdi



6 mart 2018-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelində "AtaTravel" MMC tərəfindən 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə işgüzar qadınlar üçün PR işinin təşkili, vaxtın idarəedilməsi və uğurun sirri mövzularında təlim keçirildi.

"AtaTravel" MMC-nin baş direktoru Vüsal Əliyev tədbirlə bağlı bildirdi ki, hər bir sahədə olduğu kimi, turizm sahəsində də PR işi çox vacib və böyük önəm daşıyır. Turizm sahəsinin inkişafı ilə bağlı olaraq həm ölkə daxilində, həm də ölkədən xaricdə təbliğat aparılması və bu təbliğatın qarşılıqlı şəkildə əlaqələndirilməsi olduqca effektlidir. Bu baxımdan Azərbaycanda turizmin inkişaf etdirilməsi məqsədilə PR sahəsində yeni texnologiyaların çevik və uğurlu tətbiqi, bu sahədə mütəxəssislərin yüksək səviyyədə hazırlığı, onlara beynəlxalq standartlara uyğun proqramlar əsasında tədris və təlimlər keçirilməsi olduqca məqsədəuyğundur. "AtaHolding" Şirkətlər Qrupunun Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova iştirakçılara turizm sahəsində PR işinin təşkili və uğurli fəaliyyətlə bağlı təqdimat etdi. Azərbaycanda turizmin rentabelliyinin və gəlirliliyinin artırılmasının zəruri olduğunu diqqətə çatdıran Dilarə Zamanova bu məsələdə turizmlə bağlı PR sahəsinin inkişafını əsas məqamlardan biri kimi vurğuladı.

Daha sonra təlimçi Çimnaz Qasımova tədbirdə qadınların uğurlu fəaliyyətində vaxtın idarə olunması, uğurun sirri və motivasiya mövzusunda danışaraq iş, karyera və ambisiyalarla həyat tərzi, yəni sağlamlıq, məmnuniyyət, asudə vaxt və ailə arasında balansın formalaşdırılmasının insanlar üçün vacibliyini bildirdi. Diqqətə çatdırıldı ki, iş və asudə vaxt bölgüsü və balansı hələ 19-cu əsrin əvvəllərindən Qərbdə aktual məsələ kimi gündəmə gətirilib və həmin vaxtdan başlayaraq, iş-həyat balansına mükəmməl formada nail olunması üçün bir sıra konsepsiyalar ortaya çıxıb. Təlimçi tərəfindən iş-həyat balansının pozulması hallarına hazırda inkişaf etmiş ölkələrdə də rast gəlindiyi və bu problemin insanların həyatına mənfi təsir etdiyi bildirildi, iş-həyat balansına nail olunması ilə bağlı vacib tövsiyələr iştirakçıların diqqətinə çatdırıldı.

# Müdrikliyin özü və sözü



Azərbaycan cəmiyyəti Milli Məclisin deputatı, yazıçı-publisist, Əməkdar jurnalist və bir neçə kitabın müəllifi İmamverdi İsmayılovu, hər şeydən əvvəl, özünəməxsus vətəndaşlıq mövqeyinə malik yaradıcı ziyalı kimi qəbul edir.

Mətbuatda az yazıb, xitabət kürsülərindən az danışmasına baxmayaraq, ictimai-siyasi və ədəbi mühitdə onun sabit, dəyişməz mövqeyi hər kəsə bəllidir. Bu tanınmış Azərbaycan ziyalısı ölkəmizdə dövlət müstəqilliyinin bu günü və gələcəyinin xalqımızın taleyində xüsusi rolu olan Heydər Əliyev - İlham Əliyev milli dövlətçilik təlimi və strategiyası ilə üzvi surətdə bağlı olduğunu dərindən bilir və bu idealın daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsinə ürəkdən dəstək verir.

Bu mənada cəmiyyətdə gedən proseslərə təmkinli və məsuliyyətli münasibəti İmamverdi İsmayılovun obyektiv azərbaycançı mövqeyinin ifadəsidir.

5 çağırış ardıcıl Milli Məclisin deputatı kimi İmamverdi İsmayılov ictimai-siyasi mühitdə sabit mövqe nümayiş etdirməklə proseslərin irəli aparılmasına təkan verir.

Onun həmkarları və dostları arasında mehriban və səmimi dialoq qurmaq istedadı Milli Məclisdə iclasdankənar faydalı və səmərəli ünsiyyətin formalaşdırılmasına, həyat və cəmiyyətlə bağlı işgüzar müzakirələrə şərait yaradır.

İmamverdi İsmayılov Milli Məclisin daxili ictimai mühitində həmişə ön mövqedə dayanır. Onun obyektiv münasibətləri ifadə edən fikirləri, yığcam və sərrast sözləri plenar iclaslardakı müzakirələrin əsas tezislərini tamamlamağa və daha da möhkəmləndirməyə xidmət edir.

Hamı etiraf edir ki, Milli Məclis mühiti üçün çox zəruri, aktual olan gündəmi dərhal və dərindən hiss etməkdə, tənzimlənməyə köklənməkdə də deputat kimi İmamverdi İsmayılovun özünəməxsus yeri vardır.

Həmkarları yaxşı bilirlər ki, onun yarızarafat-yarıciddi dediyi sözlərin, açdığı dialoqun arxasında açıq və gerçək, həm də sərt bir baxış var. İmamverdi İsmayılovun ətrafında cərəyan edən dialoq mühiti adamların açıq ürəklə, səmimi şəkildə özünüifadəsinə ton verir. Bu isə son nəticədə ictimai-mənəvi mühitdə sabit mövqeyin formalaşmasına, qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edir.

İmamverdi İsmayılov ictimai-siyasi arenaya ədəbi-maarifçi mühitdən, söz dünyasından gəlmişdir. Onun Azərbaycan Dövlət Universitetini, Bakı Ali Partiya Məktəbini bitirdikdən sonra elm və maarifçilik, dil və ədəbiyyat sahəsindəki fəaliyyəti yeni cəmiyyət quruculuğu məsələləri ilə əlaqədar olub, regionda ictimai-siyasi proseslərin inkişaf etdirilməsi qayğılarını əhatə etmişdir. Lap gənclik illərindən rayon və ölkə mətbuatındakı dərin, həyati məzmunlu, cəlbedici, düşündürücü yazıları ilə o, ictimai-mənəvi münasibətlərin tarazlı inkişafına, ziyalı sözünün xalqa çatdırılmasına əmək sərf etmişdir. Bu, İmamverdi İsmayılovun maarifçilik ağırlıqlı siyasi baxışlara malik ziyalı kimi formalaşmasında mühüm rol oynamışdır.

Maarifçi və ədəbi mühitdə olduğu kimi, ictimai-siyasi düşərgədə də onun hadisələrə, proseslərə təmkinli münasibəti və hazırcavab ziyalı kimi yanaşması həmişə ümumi gedişatın xeyrinə olmuşdur. Ümumiyyətlə, xeyirxahlıq və bütövlük İmamverdi İsmayılovun özünəməxsus simasını müəyyən edir.

İmamverdi İsmayılovun dövri mətbuatı, gündəlik qəzet və jurnalları ardıcıl olaraq mütaliə etməsinin, bədii ədəbiyyata maraq göstərməsinin də cövhərində maarifçilik dayanır. O, həyatda da, mətbuatda da günün son xəbərlərinin fonunda imkan daxilində ən azı yaxın ətrafında süni sensasiyalara və şayiələrə aydınlıq gətirməyə, mühitin obyektiv reallıqlarının diqqət mərkəzinə çəkilməsinə səy göstərir.

Maarifçilik istiqamətindəki fəaliyyətində İmamverdi İsmayılov jurnalistika ilə yanaşı, bədii yaradıcılığa da xüsusi üstünlük verir. Müşahidə olunan əsas cəhət odur ki, o, özünəməxsus qəzetçilik, jurnalistika məşqləri, televiziya və radio dərsləri, həm də böyük həyat məktəbi keçdikdən sonra daha çox publisistika yaradıcılığı ilə məşğul olmuşdur.

İmamverdi İsmayılovun imzası Azərbaycanda müasir publisistikanı yaradanların ön sıralarındadır.

Onun publisistikasında hadisələrin və faktların təqdimatı yox, analitik şərhlərin və qiymətləndirmənin xüsusi çəkisi var.

Bundan başqa, İmamverdi İsmayılovun publisistikası obrazlı cümlə quruluşu, bədii təsvir vasitələrindən yaradıcı istifadə kimi fərqli sənətkarlıq xüsusiyyətlərinə malikdir.

Bu o deməkdir ki, İmamverdi İsmayılov Azərbaycan bədii publisistikasının inkişaf yollarında ardıcıl olaraq təmkinlə yol gedən müəlliflərdəndir.

Sovet dövrünün özünəməxsus stereotipləri, keçilməz sədləri mühitində hər əlinə qələm alan öz yazılarını qəzet və jurnallarda dərc etdirə, hər jurnalist tanına, jurnalistika sahəsində qəbul oluna, respublikada məşhurlaşa bilməzdi. Bədii yaradıcılığa tələbkarlıq o qədər yüksək idi ki, gənc yaşlarında respublika mətbuatına çıxanlar barmaqla sayılacaq qədər olardı.

İmamverdi İsmayılov da həmin dövrün yaradıcı istisnalarından sayılmışdır. Hələ tələbəlik illərində - Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin Jurnalistika fakültəsinin II kursunda oxuyarkən qələmə aldığı "Təqaüd" hekayəsi ilə az vaxtda tələbələrin sevimlisinə çevrilmişdi. "Əzrayıl" povesti isə dövrün ədəbi mühitində böyük rezonans doğurmuşdu. Ədəbi fəaliyyətinin lap başlanğıcından tənqidin diqqətini cəlb etmiş, neçə-neçə tanınmış tənqidçi onun yaradıcılığına toxunaraq haqqında xoş sözlər, təriflər səsləndirmişdir.

"Azərbaycan", "Ulduz" jurnallarında müntəzəm şəkildə bədii-publisistik yazıları çıxmış, jurnalistika sahəsindəki uğurları da diqqətçəkən olmuşdur. Sovet Azərbaycanında cəmi bir televiziya kanalının - indiki AzTV-nin fəaliyyət göstərdiyi illərdə böyük yaradıcı kollektivi olan bu mötəbər qurumda İmamverdi İsmayılovun "Gənclik" Baş Redaksiyasının Baş redaktoru vəzifəsinə irəli çəkilməsi, dövrün qaydalarına görə, qeyri-adi təyinat kimi sensasiya doğurmuşdu.

Bu sadə və müdrik ziyalının bütün uğurlarının mayasında zəhmətkeşliklə bərabər, çox mühüm bir amil də dayanır: İmamverdi İsmayılovun istedadı, dərin müşahidə qabiliyyəti və sarsılmaz iradəsi vardır. Bunlardır dünən gənc, bu gün oturuşmuş qələm sahibini sevdirən və məşhurlaşdıran əsas amillər.

İmamverdi İsmayılovun bədii əsərlərində - hekayə və povestlərində də publisistikanın özünəməxsus yeri vardır. Daha doğrusu, İmamverdi İsmayılov publisistika ağırlıqlı hekayəçidir.

Publisistikaya üstünlük vermək jurnalistikadan gəlməklə bərabər, həm də İmamverdi İsmayılovun xarakterindəki həyat hadisələrinə obyektiv münasibət bəsləmək, gündəmə müdaxilə etmək kimi xasiyyətlərin də əks-sədasıdır. Publisistikasında günün ovqatını zamanın nəbzi kimi, özünəməxsus fərdi bir obrazlı üslubla ifadə etməyi bacaran İmamverdi İsmayılov oxucunun üfüqlərini açır, onu reallıqlara doğru çəkməyə işıq salır.

Bədiilik onun publisistikasının emosional səviyyəsini qüvvətləndirir, cəlbedici, oxunaqlı edir və təsir gücünü artırır. Bədii əsərlərindəki dərin müşahidə, incə ştrixlər, oxunaqlı, axıcı dil və yumor notları isə təxəyyülün məhsulu olan hekayələrinə həyatilik gətirir. Buna görədir ki, İmamverdi İsmayılovun ən yaxşı publisistik məqalələri də bədii əsər, lirik hekayə təsiri bağışlayır. Onun konkret fəaliyyət sahəsinin aparıcı simalarına həsr edilmiş hekayələri oçerk təəssüratı yaradır.

Düşünürəm ki, bu xüsusiyyətlərə malik olan bədii publisistika və publisistik hekayəçilik orijinal yoldur və İmamverdi İsmayılovun üslubunun fərdi özünəməxsusluğunu şərtləndirir.

Son illərdə ön mövqeyə çıxmış siyasi publisistikasında da İmamverdi İsmayılov bədiilik xüsusiyyətlərinə əməl etmək məharəti nümayiş etdirir. Siyasi publisistikada bədiilik keyfiyyətinə nail olmaq mənasında xüsusi professionallıq göstərən İmamverdi İsmayılov müraciət etdiyi mövzunu və şəxsiyyəti daha aydın və cazibəli, parlaq və dərindən əks etdirməyə nail olur.

Onun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş silsilə publisistik əsərləri siyasi proseslərin reallıqlarının və perspektivlərinin obyektiv inikası ilə birlikdə, həm də təsirli təsvirləri və oxunaqlı üslubu ilə yaddaşlara dərin iz salır.

Tərəddüd etmədən demək mümkündür ki, İmamverdi İsmayılov ən yeni dövr Azərbaycan siyasi publisistikasının yaddaqalan, uğurlu nümunələrini yaradan yazıçılarımızdan biridir.

Son illərin bir çox orijinal siyasi publisistika nümunələri məhz İmamverdi İsmayılovun qələmindən çıxmışdır. Siyasətçi-publisistin bir neçə məqaləsi müsbət mənada ictimai-siyasi və ədəbi mühitdə ciddi əks-səda doğurmuşdur. Bir çox hallarda o, parlamentdə deməyə borclu olduğu sözü siyasi publisistikası vasitəsilə geniş oxucu auditoriyasına çatdıra bilmişdir.

Fikrimizcə, çoxcəhətli fəaliyyətindəki maarifçi mövqe, publisistikasında və hekayələrindəki obrazlı düşüncə, xarakterindəki hazırcavablıq və yumor, habelə zəngin həyat təcrübəsi İmamverdi İsmayılovun müdrik düşüncələrinin formalaşmasında mühüm rol oynayır.

Həyat məktəbi olan publisistika və hikmət xəzinəsi sayılan bədii yaradıcılıq, həmçinin içərisində olduğu mühitə ayıq-sayıq münasibət onun müdrik aforizmlərinin əsas ilham mənbəyidir.

Ona görə də məntiqi ardıcıllıqla oxuculara təqdim olunan aforizmlər İmamverdi İsmayılovun zəngin həyat təcrübəsi ilə yanaşı, həm də publisistikası və hekayələrində səslənən müdrik düşüncələrinin məntiqi davamı kimi meydana çıxır.

Bu aforizmlər yazıçı-siyasətçinin cəmiyyətə dərk olunmuş münasibətinin ümumiləşdirilmiş ifadəsidir...

Bu düşüncələr keşməkeşli həyat yolundan, yazıçı-publisist müşahidələrindən doğan hikmətamiz aforizmlərdir...

Təsadüfi deyil ki, İmamverdi İsmayılovun müdrik düşüncələrinin bir çoxu həyatda yaşamış real insanların - atası, anası, babası, əmisi, dayısı kimi yaxın adamlarının adından "onlar deyərdi ki" təhkiyəsi əsasında formalaşdırılaraq, yaşanmış həyati proseslərin ümumiləşdirilmiş ifadəsinə çevrilir.

Məsələn: "Anam deyərdi ki, kəsiyin çörəyini kəsməzlər..."

*"...Dədəm qonşusuyla deyib-gülərdi: Sən elə tərsməssəb adamsan ki, hər şeyin tərsinədir. Pul verəndə canın çıxır, danışanda da pulun..."*

*"...Əmimin sözləridir: həpənd köpəkoğlu, dalıma minməyin cəhənnəm, ta ürəyimdən niyə sallanmısan?!"*

*"Nənəm ölə bilməyən, ağır can verən insanı görəndə deyərdi ki, zalımın balasının dalında çox qarğış var deyən belə zillət çəkir..."*

*"...Əmim deyərdi ki, sən elə bir nəsildənsən ki, yaxşısından yaxşısı, pisindən də pisi yoxdur..."*

*"...Bir dostum yaxşı deyir: "Yeznə əlavə dəyər vergisidir..."*

*İmamverdi İsmayılovun bəzi müdrik düşüncələri həm də miniatür hekayələrdir:*

*"Qonşu kəndin bir toyunda bərk dava düşür. Bir mərdimazarın sol gözünü vurub çıxarırlar. Bunu görən əmim başını yelləyib gülür: - İki gözünlə bu dünyanı yaxşı görə bilmirdin, ay yazıq, di get, bir gözün də bəsindir..."*

*Və yaxud:*

*"Mən səni sevmək istədim, bir ömrə çatdıra bilmədim. Kaş bunu biləydin. Gəlib qəbrimin üstündə tökəydin göz yaşlarını..."*

*İmamverdi İsmayılovun atalar sözləri kimi sərrast səslənən fikirləri də vardır. Bu aforizmlər folklordan yox, həyatdan, təcrübədən gəlir:*

*"Tumurcuqlamayan ağac odundur..."*

*"...Çörəyini böl, özünü bölmə!"*

*"...Ağıl ətraf ağıllı olanda görünər..."*

*"...Etdiyin yaxşılıqlar rəfə yığılan kitab kimidir: vədəsi gələndə oxunacaq..."*

*"...Dağın dərəsi olmasa, yelini kim çəkər?"*

*"...Qisməti axtarmırlar..."*

*"...Ölüm ayağındakı müdriklik kimə lazımdır?"*

*"...Sədaqət sədəqə deyil..."*

İmamverdi İsmayılovun aforizmlərlə zəngin bu düşüncələrində, demək olar ki, həyatın bütün sahələrinə aid müdrik sözləri verilib.

Aforizmlər onun müəllifinin müdrik düşüncələrinin ümumiləşdirilmiş toplusudur.

Yeri gəlmişkən, burada bir kiçik haşiyə çıxmaq istəyirəm.

İmamverdi İsmayılov şəxsi ünsiyyət yaradanda duzlu söhbət edir və belə söhbətlər zamanı da aforizmlərdən, müdrik sözlərdən çox ustalıqla istifadə etməyi bacarır. Xalqımıza məxsus belə deyimlər, əslində, fikrin daha dəqiq və sərrast ifadəsinə kömək edir. Fərq ondadır ki, o, daha çox məhz özünün müdrik deyimlərinə üstünlük verir. Hərdən elə təsəvvür yaranır ki, bəzi fikirlər İmamverdi İsmayılovun dilində daha hikmətamiz səslənir, yaxud o, sözün mahiyyətindəki müdrik mənanı başqalarından daha yaxşı tapıb qabardır.

Qiymətli kəlamların bir qismi İmamverdi İsmayılovun dostlarının əhatəsində, konkret hadisələrlə bağlı meydana gəlmiş, həm də çox dəqiqliklə yerinə düşmüşdür.

Fikir vermişəm ki, həmkarımız mübahisə edən tərəfləri sərrast və məqamında söylənmiş fikirlərlə "barışdırmağı", sülh yaratmağı da yaxşı bacarır.

Ona görədir ki, çoxumuz onu "barışıq simvolu" kimi dəyərləndirir və sevirik.

Görünən odur ki, müdriklik onun təkcə sözündə deyil, özündə, rəftarında və münasibətlərində də vardır...

Proloq kimi düşündüyü "Öncə söz qalandır" başlanğıc sözü İmamverdi İsmayılovun sadəcə müqəddiməsi deyil, proqramıdır.

"İllər... Fəsillər... İnsanlar..." İmamverdi İsmayılovun müdriklik xəzinəsinin xalqa, oxucuya açılan pəncərəsidir: "Evindəki səmimiyyəti işinə də gətirsən, yaxşı olar"; "Hər qapını açana ürəyini açma!"; "Yollar qovuşanda ümid artır"; "Eynin açılmasa, dilin də açılmaz"; "Nə gözünü döy, nə özünü öy..."

İmamverdi İsmayılovun "Sədaqət sədəqə deyil..." fəlsəfəsi "qalan söz"ün qalın bir fəslidir.

"Yetkinlik yaşda, müdriklik başda" müasir düşüncələr serialının dərin və hikmət dolu əlavəsidir.

"Ölümün vədəsi gələndə..." fəsli "qalan söz"ün kulminasiya nöqtəsidir: "Küləklər əsməsə, kainat səslənməz, dünya kar olar"; "Mühit qorxulu müəllimdir"; "Zamanın ölçüləri dünyanı ovutmaq üçündür"; "Dünyanın ən təlatümlü zəlzələsi insanın içində olur..."; "Qabaqda getmək heç də hamını və hər şeyi qabaqlamaq demək deyil"; "Pulu kim verirsə, şərtləri də o diktə edir"; "Yerdə yeriyərlər, göydə uçarlar..."

Bu müdrik kəlamlar toplusunda **"Tanrı hüzurunda" motivi bəxtlə, tale ilə yanaşı, həm də haqqa çağırışdır: "Kimsəni endirirsənsə, özünü qaldıra bilməyəcəksən"; "Dualarının eşidilməsi üçün əməlin düz olmalıdır"; "Qalx ki, qaldırasan..." "İmanım... Gümanım... İnamım..." müdrik düşüncələrin mükəmməl finalıdır: "Hünərini vaxtında və yerində göstər"; "Savab işin qapısını dualar döyər..."**

Bütün bunlarla bərabər, eyni zamanda, aforizmlər yazıçı İmamverdi İsmayılovun özünün müdrik sözün əbədiyyətinə qəti inamını ifadə edir: "Ən böyük təam sözdür"; **"Ağıllı adamın özü uzağa gedə bilməsə də, fikirləri gedər..."; "Ümid bir dərmandır, söz bir dərman..."**

Belə bir sanballı, yüksək zövqlə hazırlanmış və peşəkar tərtibatla işlənmiş bu kitabdakı çox çətinliklə araya-ərsəyə gələn şəkillər oxuculara təqdim olunan aforizmlərə həyatilik gətirir, müdrik kəlamları aydınlaşdırır və tamamlayır. Eyni zamanda, müxtəlif mənbələrdən toplanmış bu fotoşəkillər kitab müəllifinin yüksək zövqünü, bənzərsiz romantik-fəlsəfi baxışlarını da oxucuya çatdırır. Sərrast müdrik kəlamları kimi, bu şəkillərin də mütləq əksəriyyəti yaradıcılıq axtarışları nəticəsində tapılıb, peşəkarlıqla seçilib paylanmışdır.

İmamverdi İsmayılov yüksək zövqlə tərtib olunan aforizmlərinə özü də çox uğurlu yekun vurur: "Yetkinlik yaşda, müdriklik başda!.."

Fikrimin sonunda deyim ki, təqdim olunan aforizmlər çələngi İmamverdi İsmayılovun formalaşdırdığı müdrik fikirlərin geniş dünyasında əlaqələndirici funksiya daşıyır və müəyyən boşluqları doldurmağa kömək edə bilir.

Bəli, əminliklə deyə bilərəm ki, İmamverdi İsmayılovun "Sonuncu fəsil" aforizmlər toplusu müdrikliyin özü və yaddaqalan təsirli sözüdür!..

Ömrünün bu ucalıq çağında millət vəkili, yazıçı-publisist İmamverdi İsmayılovun müdriklik və müasirlik ruhu ilə yaşayıb-yaratmaq yolunu ürəklə davam etdirməsi ibrətamiz örnəkdir.

***Ömrün də sözün kimi həmişə belə NURLU olsun, əziz qələm dostum!..***

*İsa HƏBİBBƏYLİ,*
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,*
*Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik*

# Belarusun təhsil nümayəndələri: "UNEC yeni iqtisadi təhsil modeli yaradıb"



Azərbaycanda səfərdə olan Belarus Respublikasının Təhsil Nazirliyi və bu ölkənin aparıcı ali təhsil müəssisələrinin nümayəndə heyəti UNEC-də olub.

UNEC-in rektoru, professor Ədalət Muradov qonaqlara Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti haqqında ətraflı məlumat verib. UNEC-in qlobal reytinqlərində uğurla irəlilədiyini bildirən rektor dünyanın aparıcı universitetləri ilə reallaşdırılan ikili diplom proqramları, inklüziv təhsil sahəsində əldə edilən nailiyyətlər, əcnəbi tələbələr üçün qəbulun elektronlaşdırılmasından söz açıb.

Görüşdə Belarus Dövlət İqtisad Universiteti, Suxov adına Qomel Dövlət Texiniki Universiteti, Belarus Dövlət İnformatika və Radioelektornika Universiteti, Yanka Kupala adina Qrodno Dövlət Universiteti, Polotsk Dövlət Universiteti, Qrodno Dövlət Aqrar Universiteti, Belarus Milli Texniki Universiteti və Belarus Dövlət Universitetinin nümayəndələri təmsil etdikləri ali təhsil müəssisələri barədə ətraflı məlumat veriblər. UNEC-də olmaqdan məmnunluqlarını ifadə edən qonaqlar Azərbaycan Dövlət İqtisad Universitetində yeni iqtisadi təhsil modelinin yarandığını məmnuniyyətlə izlədiklərini bildiriblər.

# Thomson Reuters: "UNEC dünya elm məkanına uğurla inteqrasiya edir"

Clarivate Analytics təşkilatının Rusiya və MDB ölkələri üzrə icraçı direktoru Oleq Utkin, təşkilatın Təhsil proqramları üzrə direktoru Valentin Boqorov UNEC-də olub.

UNEC-in rektoru, professor Ədalət Muradovla görüşən nümayəndə heyəti "Thomson Reuters"lə universitet arasında əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparıblar. Görüşün əsas müzakirə mövzusu elmi seminar, beynəlxalq konfransların təşkili və elmmetrik məktəbin yaradılması olub.

Görüşdə UNEC-in ev sahibliyi ilə keçirilən "Müasir universitetlərdə elmi fəaliyyətin idarə olunması modeli: innovativ inkişaf, çağırışlar və perspektivlər" mövzusunda beynəlxalq konfransın elmi ictimaiyyətdə böyük maraq doğurduğu vurğulanaraq, konfransın materiallarından ibarət kitabın çap olunduğu qeyd edilib.

Bildirilib ki, "Thomson Reuters"-lə UNEC-in birgə təşkilatçılığı ilə daha bir beynəlxaq konfransın keçirilməsi nəzərdə tutulub. Beynəlxalq konfrans dünyanın nüfuzlu universitetlərinin alimlərini UNEC-də yenidən bir araya gətirəcək.

UNEC-in beynəlxalq səviyyəli universitet olmaq istiqamətində məqsədyönlü addımlar atıldığından məmnunluğunu ifadə edən O.Utkin "Thomson Reuters"in bu istiqamətdə həyata keçirilən layihələri dəstəklədiyini bildirib. O, UNEC-in nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artdığını yüksək qiymətləndirərək universitetin dünya elm məkanına uğurla inteqrasiya etdiyini bildirib. UNEC-in elmi aləmdəki nüfuzunu nəzərə alaraq, Elmmetrik Məktəbin məhz burada yaradılmasının vacibliyini qeyd edib.

# BANK MELLİ İRAN BAKI FİLİALI
# 31 DEKABR 2017-Cİ İL TARİXİNƏ BALANS HESABATI

| AKTİVLƏR | Qeydlər | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| | | | |
| | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 52,271,679 | 35,127,191 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 7 | 2,476,426 | 3,659,374 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 3,355,298 | 7,161,773 |
| Ödəniş tarixinədək saxlanılan investisiya kağızları | 9 | 18,347,899 | 12,436,730 |
| Binalar və avadanlıqlar | 10 | 3,608,285 | 3,708,168 |
| Qeyri-maddi aktivlər | 10 | 50,198 | 38,083 |
| Digər aktivlər | 11 | 20,387,890 | 18,336,271 |
| | | | |
| **CƏMİ AKTİVLƏR** | | **100,497,675** | **80,467,590** |
| | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 12 | 28,153,414 | 55,092,450 |
| Müştəri hesabları | 13 | 2,661,778 | 2,359,310 |
| Təxirə salınmış gəlir vergisi öhdəliyi | 21 | 285,445 | 30,025 |
| Digər öhdəliklər | 14 | 112,127 | 1,079,211 |
| Subordinasiya borcu | 15 | 18,276,300 | - |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **49,489,064** | **58,560,996** |
| | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 16 | 73,611,171 | 51,433,671 |
| Binalar üzrə yenidənqiymətləndirmə ehtiyatı | | 12,036 | 17,403 |
| Yığılmış zərər | | (22,614,596) | (29,544,480) |
| | | | |
| **CƏMİ KAPİTAL** | | **51,008,611** | **21,906,594** |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **100,497,675** | **80,467,590** |

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixində bitən il üzrə | 31 dekabr 2016-cı il tarixində bitən il üzrə |
|---|---|---|---|
| | | | |
| Faiz gəlirləri | 17 | 2,970,943 | 3,260,948 |
| Faiz xərcləri | 17 | (53,702) | (43,736) |
| | | | |
| **Xalis faiz gəlirləri** | | **2,917,241** | **3,217,212** |
| | | | |
| Dəyərsizləşmə üzrə ehtiyat , xalis | | 1,676,394 | (30,895,622) |
| Hesablanmış faiz xərclərinin geri qaytarılması | 12 | 4,073,158 | - |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz (zərəri)/gəlirləri** | | **8,666,793** | **(27,678,410)** |
| | | | |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir - zərər çıxılmaqla | 18 | 208,960 | 363,993 |
| Haqq və komissiya gəlirləri | 19 | 199,077 | 135,382 |
| Haqq və komissiya xərcləri | 19 | (67,655) | (44,298) |
| Ticarət üçün qiymətli kağızlar üzrə realizasiya olunmuş zərər | | - | (8,395) |
| Digər gəlirlər | | 3,567 | 1,776 |
| **Əməliyyat (zərəri)/gəliri** | | **9,010,742** | **(27,229,952)** |
| | | | |
| Əməliyyat xərci | 20 | (1,830,806) | (2,042,207) |
| **Vergidən əvvəlki mənfəət** | | **7,179,936** | **(29,272,159)** |
| Mənfəət vergisi (xərci)/ gəliri | 21 | (256,761) | 1,667 |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT/(ZƏRƏR)** | | **6,923,175** | **(29,270,492)** |
| Yenidən qiymətləndimə üzrə ehtiyatın bölüşdürülməmiş mənfəətə köçürülməsi | | - | 6,709 |
| **Bölüşdürülməmiş mənfəətdə xalis dəyişiklik** | | **6,923,175** | **(29,263,783)** |
| **Məcmu gəlirlər** | | | |
| Digər məcmu gəlir komponentləri üzrə mənfəət vergisi gəliri | | 1,342 | 1,342 |
| **İl üzrə digər məcmu gəlirlər** | | **1,342** | **1,342** |
| Yenidən qiymətləndimə üzrə ehtiyatın bölüşdürülməmiş mənfəətə köçürülməsi | | - | (6,709) |
| **Digər ehtiyatlarlarda xalis dəyişiklik** | | **1,342** | **(5,367)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR / (ZƏRƏR)** | | **6,924,517** | **(29,269,150)** |

| | Səhmdar kapitalı | Yığılmış zərər | Digər ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|
| | | | | |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **51,433,671** | **(280,697)** | **22,770** | **51,175,744** |
| | | | | |
| İl üzrə xalis zərər | - | (29,270,492) | - | **(29,270,492)** |
| İl üzrə digər məcmu gəlirlər | - | | 1,342 | **1,342** |
| Yenidən qiymətləndimə üzrə ehtiyata köçürmə | - | 6,709 | (6,709) | **-** |
| | | | | |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **51,433,671** | **(29,544,480)** | **17,403** | **21,906,594** |
| | | | | |
| İl üzrə xalis mənfəət | - | 6,923,175 | - | **6,923,175** |
| İl üzrə digər məcmu gəlirlər | - | - | 1,342 | **1,342** |
| Əlavə kapital qoyuluşu | 22,177,500 | - | - | **22,177,500** |
| Yenidən qiymətləndimə üzrə ehtiyata köçürmə | - | 6,709 | (6,709) | **-** |
| | | | | |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **73,611,171** | **(22,614,596)** | **12,036** | **51,008,611** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

Bank Melli İran Bakı filialının Səhmdarları və Rəhbərliyinə:

***Rəy***

Biz Bank Melli İran Bakı Filialı ("Bank") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2017-ci il tarixinə Bankın maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

***İzahedici paraqraf***

Biz, həmçinin maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən 11 saylı qeydi nəzərinizə çatdırmaq istəyirik. Həmin qeyddə Bankın Məhkəmə iddiası üzrə dövlət orqanlarından alınacaq məbləğin Tanınma və Qiymətləndirməsi təsvir edilmişdir. Bu məsələ ilə əlaqədar olaraq biz şərti rəy bildirmirik.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Bankın idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Bankı ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Bankın daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Bankın idarə edilməsinə cavabdeh olan şəxslər Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar spektisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymərləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Bankın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

- Rəhbərlik tərfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Bankın daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda fərdi maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Bank daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Bankın idarə edilməsinə cavabdeh olan şəxslərin nəzərinə çatdırmalıyıq.

Nexia EA LLC

2 mart 2018-ci il
Azərbaycan Respublikası, Bakı

Azərbaycan Respublikası · NEXİA EA · MMC · NEXİA EA · Azerbaijan Republic · NEXİA EA · LLC

# Azercell növbəti Karyera Sərgisində iştirak edib



Ölkəmizdə tələbə və məzunlara dəstək məqsədilə təşkil olunan Karyera Sərgilərində iştirakı ənənəyə çevrilən "Azercell Telekom" MMC ASAN Könüllülük Məktəbinin "ASAN kadr" karyera mərkəzi və Bakı Ali Neft Məktəbinin təşkilatçılığı ilə baş tutan 1-ci "Karyera sərgisi"nə qatılıb. Bakı Ali Neft Məktəbində baş tutan sərgidə şirkətin İnsan Qaynaqları Departamentinin əməkdaşları tərəfindən hazırlanan Azercell-in stendi hər kəs tərəfindən böyük maraqla qarşılanıb. Stenddə şirkətin iş prinsipləri, kadr seçimində üstünlük verilən meyarlar haqqında məlumatlar yer alıb. Burada, həmçinin Azercell-də tələbə və məzunlar üçün yaradılan imkanlar, gənclərin inkişafına yönəldilən proqram və layihələr haqqında da məlumat almaq mümkün olub. Şirkətin nümayəndələri Azercell-ə işə qəbul olunmaq arzusunda olan məzunlar üçün informasiya sessiyaları təşkil edib, onların suallarını cavablandırıb və ehtiyac olduğu halda məsləhətlər də veriblər.

# Azercell ADA-da Karyera Sərgisində




Azercell Telekom MMC ADA-da keçirilən 6-cı Karyera Sərgisində iştirak edib. 900-dən çox tələbənin və 105 şirkətin iştirak etdiyi sərgidə Azercell əməkdaşları öz fəallıqları və maraqlı stendləri ilə seçiliblər. Şirkətin İnsan Qaynaqları Departamentinin nümayəndələri Azercell-ə işə qəbul olmaq istəyən məzunlar üçün informasiya sessiyaları təşkil edib və şirkətdə mövcud olan vakansiyalar barədə sərgi iştirakçılarını məlumatlandırıblar. İşə qəbul şöbəsinin əməkdaşları Azercell-ə işə qəbul və şirkətin elan etdiyi Tələbə Təqaüdü və Təcrübə proqramları haqqında məlumat veriblər, eyni zamanda, məzunları maraqlandıran sualları cavablandırıblar. Tələbələr mövcud əmək bazarında onların ixtisaslarına olan tələbat barədə məlumat əldə etmək, işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlər isə öz növbəsində potensial kadrların seçimini aparmaq imkanı qazanıblar.

Tədbirin keçirilməsində məqsəd öz bacarıq və biliklərinə uyğun iş axtaran gənclərə məsləhətlər vermək, onlara gələcək karyeralarını qurmaqda yardım etməkdir.

Qeyd edək ki, Azercell Telekom daim istedadlı gənclərə bu istiqamətdə dəstək olur.

Hər il baş tutan bu cür tədbirlər zamanı şirkətdə işləmək istəyən istedadlı gənclərlə görüşlər keçirilir, Azercell-in fəaliyyəti, iş prinsipləri barədə ətraflı məlumat verilir. Şirkətin elan etdiyi Tələbə Proqramı çərçivəsində Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan qabiliyyətli gənclərimiz Azercell-dən xüsusi təqaüd və şirkətin müxtəlif şöbələrində təcrübə keçmək imkanı qazanırlar.

# Azercell-in 4G şəbəkəsinə keç, 5GB internet hədiyyə qazan!

Ölkəmizdə ən böyük 4G şəbəkəsinə sahib Azercell Telekom bütün abunəçilərinin 4G xidmətindən yararlanması məqsədilə yeni kampaniyaya başlayır. İndi Şirkət 5GB internet paketini bütün abunəçilərinə hədiyyə edir. Kampaniyadan yararlanmaq üçün abunəçilərə sadəcə 4G xidmətinə qoşulub, "4" rəqəmini 2525 qısa nömrəsinə SMS-lə göndərmək kifayətdir. 4G şəbəkəsində istifadəsi nəzərdə tutulan 5GB internet ilə abunəçilər əsl 4G sürətini sınamaq imkanı qazanacaqlar. Kampaniya haqqında ətraflı məlumatı www.azercell.com internet səhifəsində əldə etmək mümkündür. Məlumat üçün bildirək ki, 4G xidmətindən istifadə edib yüksək sürətli internetdən faydalanmaq üçün müştərinin 4G dəstəkli telefonu, 4G xidmətini dəstəkləyən Sim Kartı və telefon ayarlarında şəbəkə seçimi 4G olmalıdır. Əgər nömrədə 4G xidməti aktiv deyilsə, abunəçilər Azercell Müştəri Xidmətləri ofislərinə yaxınlaşaraq 4G şəbəkəsini dəstəkləyən Sim kartları PULSUZ olaraq əldə edə bilərlər.

Qeyd edək ki, ölkədə 4G xidmətini ilk dəfə abunəçilərinə təqdim edən və Azərbaycanın bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən Azercell 2017-ci ildə Bakı, Abşeron yarımadası ilə yanaşı, Gəncə, Bərdə, Şəmkir və Lənkəranda da 4G stansiyaları quraşdırdı və bununla da LTE xidmətini regionlara gətirən ilk mobil operator oldu. Ölkədə ən böyük LTE şəbəkəsinə sahib olan Azercell-in 4G internet istifadəçilərinin sayı 2017-ci ildə əvvəlki illə müqayisədə 3 dəfə artdı, mobil internetdən istifadə həcmi isə 50% çoxaldı. Məlumat üçün bildirək ki, 4G şəbəkəsinin təmin etdiyi inanılmaz yüksək sürət müasir İnternet məkanının təklif etdiyi mobil TV, videokonfrans, onlayn oyun və müxtəlif proqramlardan daha rahat istifadəni mümkün edir.



KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# "Yaşıl iqtisadiyyat"a geniş üfüqlər açılır

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq həyata keçirilən sənayeləşmə siyasətinə əsasən, ölkəmizdə yeni sənaye sahələri yaradılmış, yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Müasir avadanlıqlarla təchiz olunan və qabaqcıl təcrübəyə əsaslanmaqla fəaliyyət göstərən sənaye müəssisələrində tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixracın həcmi yüksəlir, tullantıların təkrar emalı kimi yeni sahələr inkişaf etdirilir, xammal idxalından asılılıq azaldılır, resurslara və enerjiyə qənaət olunur. Bu da, öz növbəsində ölkədə "yaşıl iqtisadiyyat"ın yüksəlişinə geniş imkanlar yaradır.

Sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq baxımından sənaye parkları geniş imkanlara sahibdir. Sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan bir çox ölkələr iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına xüsusi önəm verirlər.

Sahibkarlığın dəstəklənməsində sənaye parklarının əhəmiyyətini nəzərə alan Azərbaycan hökuməti də bu sahədə ciddi addımlar atıb və sənaye parkının yaradılması ideyası ilk dəfə 2002-ci ilin sentyabrında imzalanan "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanda müəyyən edilib. Ölkəmizdə yüksək texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli sənaye istehsalının inkişafına xidmət edən sənaye parklarının yaradılmasına başlanılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dən sonra 2011-ci il dekabrın 28-də imzalanan Sərəncamla da Balaxanı Sənaye Parkı yaradılıb. "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ölkədə təkrar istehsalı inkişaf etdirmək üçün əsas vasitələrdən biri olan Balaxanı Eko-Sənaye Parkının yaradılması Prezident İlham Əliyevin 4 may 2011-ci il tarixli Sərəncamı ilə qərara alınmışdır. 19 dekabr 2012-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Balaxanı Sənaye Parkının təməli qoyulmuşdur. 2017-ci il sentyabrın 22-də isə Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının açılışında iştirak etmişdir.

Balaxanı Sənaye Parkının yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədlərinə xidmət edir. Bu parkın yaradılmasında başlıca hədəf təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli imkan yaratmaq, təkrar emal biznesinin genişləndirilməsi, yaşıl məhsul istehsalının artırılması,innovativ texnologiyaların tətbiqi, məlumat və bilik mübadiləsinin həyata keçirilməsidir. Parkın əsas perspektiv planlarına isə ümumi və davamlı infrastrukturun yaradılması, emal, istehsal və xidmət sahələrinin əlaqəli şəkildə vahid məkanda yerləşməsi, sənayenin ətraf mühitə təsirlərinin azaldılması məsələləri daxildir.

Yaşıl biznesin, əsasən də tullantıların təkrar emalı sənayesinə marağı artırmaq məqsədi ilə potensial sahibkar və investorlar üçün parkın xarici və daxili infrastrukturunun qurulması planlaşdırılır. Belə ki, xarici infrastruktur kimi yol salınacaq, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkiləcək. Park girişində qeydiyyat məntəqəsi və tərəzilər qurulacaq, ərazidə ofis və əməliyyat binası tikiləcək və bütün lazımi ilkin infrastruktur yaradılacaqdır.

Sənaye Parkının Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonuna, tullantıların çeşidlənməsi və yandırılması zavodlarına, o cümlədən əsas nəqliyyat qovşağına yaxın olması logistika, xammal və enerji təchizatına, eləcə də istehsal olunmuş məhsulun asanlıqla satış bazarına çıxarılmasına əlverişli imkan yaradır. Hazırda Balaxanı Sənaye Parkına işlənmiş mühərrik yağlarının, tullantı plastik butulkaların, kağız-karton məmulatların, tullantı plastik materiallarının, süngər tullantılarının təkrar emalı sahələri üzrə qeydiyyata alınan 5 rezident tərəfindən 23 milyon manat investisiya yatırılıb.

Digər sənaye parklarının rezidentləri kimi, Balaxanı Sənaye Parkının rezidentlərinə də dövlət tərəfindən bir sıra güzəştlər edilib. Rezidentlər 7 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən, sənaye parkında istehsal sahəsinin qurulması və məhsul istehsalı məqsədilə idxal edilən texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və idxal rüsumundan azad edilir. Balaxanı Sənaye Parkının ərazisində infrastruktur obyektlərinin qurulması və rezidentlərin tələblərinə uyğunlaşdırılmış istehsalat binalarının tikintisi dövlət vəsaiti hesabına həyata keçirilib. Artıq ümumi sahəsi 12 min kvadratmetr olan anqar tipli 15 istehsalat binası rezidentlərin istifadəsi üçün tam hazırdır.



Balaxanı Sənaye Parkının rezidentlərinə gəldikdə isə, onun əsas rezidentlərindən biri **"Az.Ekol." MMC**-dir. Müəssisə plastik-PET butulkaların təkrar emalından plastik qırıntıların istehsalı üzrə fəaliyyət göstərəcək. Layihənin ümumi investisiya məbləği 1,5 milyon manatdır. Müəssisənin illik istehsal gücü 1500 tondur. İstehsal sahəsində 30-dan çox daimi iş yeri açılacaq. İstehsal prosesi zamanı plastik butulkalardan alınacaq yüksək keyfiyyətli plastik qırıntıların xarici ölkələrə ixracı nəzərdə tutulur. Gələcəkdə qırıntılardan son məhsul olan plastik ipliyin istehsalı da planlaşdırılır.

Balaxanı Sənaye Parkının digər rezidenti **"Ekokat" MMC**-dir. Müəssisə işlənmiş mühərrik yağlarının emalı üzrə fəaliyyət göstərəcək. İnvestisiya qoyuluşu 1 milyon manat təşkil edən müəssisənin illik istehsal gücü 3000 tondur. Rezidentə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 min manat məbləğində güzəştli kredit vəsaiti verilib. Bu güzəştli kredit hesabına Türkiyə və Çindən emal avadanlıqları alınıb. Artıq rezident tərəfindən işlənmiş mühərrik yağlarının toplanması və tədarükü üçün müqavilələrin bağlanmasına başlanılıb. Yeni yaradılan müəssisədə işlənmiş mühərrik yağlarının texnoloji və kimyəvi proseslərdən keçməklə təkrar emalından 88 faiz həcmdə yenidən istifadəyə yararlı mühərrik yağları istehsal etmək mümkündür. Bu yağlar iri-tutumlu nəqliyyat vasitələrinin və kənd təsərrüfatı texnikasının mühərriklərində istifadə üçün bütün standartlara cavab verəcək. İstehsal prosesi zamanı baza yağları ilə yanaşı, dizel yanacağı da əldə olunacaq ki, bu da istehsalın yanacağa olan tələbatının ödənilməsinə yönəldiləcək. Qalan neft qalıqları isə asfalt, ruberoid və s. istehsalında bitum əvəzedicisi kimi istifadə oluna bilər. Bundan başqa, ölkəmizdə ildən-ilə sürətlə artan avtomobil və digər texnikalarda istifadə olunmuş mühərrik və ya sürtkü yağlarının təkrar emalı bu yağların kənara atılaraq ətraf mühiti çirkləndirməsinin qarşısını alacaq.

Balaxanı Sənaye Parkının daha bir rezidenti isə fərdi sahibkar Etibar Eminovun **"Çapar" poliqrafiya müəssisəsidir.** Burada tullantı kağızlardan istifadə olunmaqla çap-poliqrafiya məhsulları istehsal ediləcək. Müəssisənin ümumi investisiya məbləği 1 milyon manatdır, illik istehsal gücü 348 tondur. Artıq müəssisə sifarişlər də qəbul etməyə başlayıb.

Balaxanı Sənaye Parkının digər rezidenti **"METAK" MMC** tullantı-plastik məmulatların təkrar emalı nəticəsində müxtəlif plastik qablaşdırma məhsullarının istehsalı ilə məşğul olacaq. Ümumi investisiya dəyəri 17 milyon manat olan "METAK" MMC-nin bu layihəsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 1,2 milyon manat güzəştli kredit vəsaiti ayrılıb. Güzəştli kredit vəsaiti hesabına Avropa, Türkiyə və Çindən alınmış istehsal xətləri Sənaye Parkında quraşdırılıb. Müəssisənin illik istehsal gücü 12 min tondur. Burada 140-dan çox daimi iş yeri açılacaq.

Balaxanı Sənaye Parkının rezidentlərindən olan **"FORİELLA" MMC** isə süngər tullantılarının təkrar emalı və mebel istehsalı üzrə fəaliyyət göstərəcək. Ümumi investisiya məbləği 3,5 milyon manat olan müəssisənin yaradılmasına da dövlət tərəfindən dəstək verilib. Belə ki, bu müəssisəyə Sahibkarlığa Kömək Milli Fondundan 2 milyon manat güzəştli kredit ayrılıb. Müəssisənin illik istehsal gücü 3 min dəst qonaq, yataq, mətbəx mebelləri, 100 min ədəd stul, 10 min masa təşkil edir. Müəssisədə 150 nəfər daimi işlə təmin olunacaq. Ümumilikdə, Balaxanı Sənaye Parkında ilkin mərhələdə 400-ə yaxın daimi iş yeri yaradılacaq. Balaxanı Sənaye Parkının fəaliyyətinin genişləndirilməsi istqamətində işlər davam etdirilir, polietilen və polipropilen tullantılarının, kartriclərin təkrar emalı, polietilen tullantılarının təkrar emalından yapışqan lent istehsalı, qida yağlarının təkrar emalı nəticəsində biodizel, taxta tullantıların emalından kömür, qida tullantılarından gübrə və yem, kağız tullantılarından meyvə-tərəvəz üçün qablaşdırma məmulatları istehsalı sahələri üzrə Balaxanı Sənaye Parkına artıq sahibkarlar tərəfindən müraciətlər də daxil olub və bu il isə daha 6 növ istehsalat sahəsi üzrə qeydiyyata alınmış rezidentlər burada fəaliyyətə başlayacaqlar. Bir istehsal sahəsinin tullantısının digər istehsal sahəsində xammal kimi istifadə olunması, tullantıların zərərsizləşdirilməsi zamanı əldə edilən alternativ enerjinin sənaye parkında istifadə imkanı, əməkdaşlıq, ümumi infrastruktur və xidmətlərdən səmərəli faydalanma, təkrar emal nəticəsində təbii resurslara və enerjiyə qənaət olunması, xammal idxalı asılılığının azaldılması kimi məsələlər məhz Balaxanı Sənaye Parkının əsas faydaları sırasına daxildir.

**Mətanət Hüseynova**






# "MEQA SIĞORTA" ASC-NİN 31 DEKABR 2017-Cİ İL TARİXİNƏ BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 275 930,52 | 330 233,94 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | 4 971,45 |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 252 997,89 | 211 172,64 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 4 837 374,20 | 8 995 705,60 |
| dövlət qiymətli kağızları | 4 437 374,20 | 8 595 705,60 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 400 000,00 | 400 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 3 168 425,01 | 3 042 947,04 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 8 534 727,62 | 12 585 030,67 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 3 218,55 | 1 881,06 |
| **Debitor borcları:** | 3 430 608,77 | 2 861 469,67 |
| birbaşa sığorta üzrə | 2 184 741,69 | 2 121 516,39 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 8 201,65 | 14 455,44 |
| - təkrarsığortaçı üzrə | 2 499,95 | 1 819,24 |
| - təkrarsığortalı üzrə | 5 701,70 | 12 636,20 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 688 199,64 | 267 085,94 |
| iddia tələbləri üzrə | 94 515,87 | |
| işçi heyəti üzrə | 327 276,45 | 115 517,87 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 127 673,47 | 342 894,03 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 24 069 127,58 | 17 330 100,84 |
| kassa | 23 537,18 | |
| hesablaşma hesabı | 289 664,91 | 269 862,73 |
| valyuta hesabı | 543 384,99 | 939 528,11 |
| depozit hesablar | 23 212 540,50 | 16 120 710,00 |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 4 494 905,91 | 2 709 215,12 |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 4 494 905,91 | 2 709 215,12 |
| **Sair qısamüddətli aktivlər:** | 109 051,22 | 33 282,73 |
| gələcək hesabat dövrlərinin xərcləri | 74 849,66 | 3 057,56 |
| verilmiş avanslar | 18 939,26 | 30 225,17 |
| təhtəl hesablar | 15 262,30 | |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | 32 106 912,03 | 22 935 949,42 |
| **CƏMİ AKTİVLƏR** | **40 641 639,65** | **35 520 980,09** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 14 500 000,00 | 14 500 000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 13 835 808,50 | 11 171 287,53 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 6 107 813,53 | 4 968 879,24 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 7 727 994,97 | 6 202 408,29 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **28 335 808,50** | **25 671 287,53** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | 11 511 753,50 | 8 574 469,65 |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 11 511 753,50 | 8 574 469,65 |
| **Qarşısıalınma tədbirləri fondu** | 33 703,33 | 62 674,92 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 287 895,11 | 836 903,80 |
| təkrarsığortaçı üzrə | 286 963,30 | 836 903,80 |
| təkrarsığortalı üzrə | 931,81 | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 11 833 351,94 | 9 474 048,37 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 377 923,34 | 375 644,19 |
| əməyin ödənilməsi üzrə | | 0,73 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | 29 542,37 | 27 657,42 |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 348 380,97 | 347 986,04 |
| **Sair qısamüddətli öhdəliklər:** | 94 555,87 | |
| gələcək hesabat dövrünün gəlirləri | 94 555,87 | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 472 479,21 | 375 644,19 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **12 305 831,15** | **9 849 692,56** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **40 641 639,65** | **35 520 980,09** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |
| * Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir. | | |

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 17 097 077,14 |
| birbaşa sığorta üzrə sığorta haqları | 16 639 740,89 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 171 985,08 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 103 426,17 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 181 925,00 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | 1 151 593,06 |
| **İnvestisiya gəlirləri üzrə** | 1 639 624,37 |
| **Subroqasiya gəlirləri** | 104 161,25 |
| **Sair gəlirlər** | 115 402,60 |
| **CƏMİ GƏLİRLƏR** | **20 107 858,42** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | 9 207 878,29 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 3 176 524,32 |
| qaytarılan sığorta haqları üzrə | 464 341,11 |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 5 538 041,27 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 28 971,59 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 3 480 145,43 |
| **Sair xərclər** | 1 208 735,65 |
| **CƏMİ XƏRCLƏR** | **13 896 759,37** |
| **Maliyyə mənfəəti (zərəri)** | **6 211 099,05** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 6 211 099,05 |
| **Mənfəət vergisi** | 1 242 219,81 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 4 968 879,24 |

## AUDİTOR RƏYİ

**"MEQA SIĞORTA" ASC-nin Səhmdarına və İdarə Heyətinə:**

Mən "MEQA SIĞORTA" ASC-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot siyasəti və digər izahedici qeydlərdən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardım.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Mənim məsuliyyətim apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Mən auditi Milli Mühasibat Uçot Standartlarına uyğun apardım. Həmin Standartlar məndən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

**Rəy**

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəy bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir. Mənim fikrimcə, 2017-ci il üzrə cəmiyyətin maliyyə (mühasibat) hesabatları milli mühasibat uçotuna uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Baku, Azerbaijan
28.02.2018

AZƏRBAYCAN AZƏR HÜSEYN OĞLU ƏLİYEV RESPUBLİKASI VÖEN 1302270622

SƏRBƏST AUDİTOR
AZƏR ƏLİYEV

icazə qeydiyyat nömrəsi SA/360

Ünvan: Bakı şəhəri, AZ1065, Yasamal rayonu Mehman Bünyadzadə küçəsi ev 251, m 53.
email: azeralisoy@mail.ru

# "Paşa Bank"ın törəməsinin kredit reytinqi təsdiq edilib

Fitch" beynəlxalq reytinq agentliyi "Paşa Bank" ASC-nin Türkiyədəki törəməsi "Pasha Yatırım Bankası"-nın uzunmüddətli kredit reytiniqini "BBB+", reytinq üzrə proqnozunu isə "stabil" səviyyəsində təsdiq edib. Agentliyin yaydığı məlumata görə, Türkiyə bankının reytinqi onun səhmlərinin 99,92%-nə nəzarət edən "Paşa Bank"ın ona dəstəyi əsasında müəyyən edilib.

Xatırladaq ki, "Fitch" Azərbaycan bankının reytinqini "B+", reytinq üzrə proqnozunu isə "stabil" səviyyəsində müəyyən edib.

Agentlik "Paşa Yatırım Bankası"nın uzunmüddətli defolt reytinqini isə Bankın daxili gücünü nəzərə almaqla "B+" səviyyəsində, həyat qabiliyyətlilik reytinqini isə "b+" səviyyəsində təsdiqləyib. Bankın Türkiyədəki digər emitentlərə qarşı kredit qabiliyyətlilik gücündə isə dəyişiklik olmayıb.

"Fitch", həmçinin bəyan edib ki, "Paşa Yatırım Banksı" 2020-ci ilə qədər aktivlərini 2 dəfədən çox artıraraq 1,8 mlrd. lirəyə (473 mln. ABŞ dollarına) çatdırmağı planlaşdırır. Bu rəqəm 2017-ci ilin III rübünün yekununda 799 mln. lirə (210 mln. dollar) təşkil edib.

"Bankın Yeni aqressiv strategiyası onun enerji, turizm və inşaat kimi riskli sektorlara daxil olmasına gətirib çıxaracaq. Hazırda "Paşa Yatırım Bankası"nın problemli kreditlərinin xüsusi çəkisi 0% təşkil edir. Bankın sürətli inkişafı və orta ölçülü şirkətlərə meyillənməsi kredit portfelinin keyfiyyətinin bir qədər azalmasına səbəb ola bilər", - deyə agentliyin məlumatında qeyd olunub.

Xatırladaq ki, "Paşa Yatırım Bankası" depozit qəbul etmək lisenziyasına malik deyil. Bu da onu əsas səhmdarından asılı vəziyyətdə saxlayır. "Fitch" Bankın əsas kapital əmsalını (FCC) ötən il oktyabrın 1-nə 34% səviyyəsində qiymətləndirib. Buna səbəb "PAŞA Bank"dan transfer edilən ilkin kapital olub.

# "Azərbaycan Kredit Bürosu" müqavilələrin imzalanması prosesini başa çatdırıb

"Azərbaycan Kredit Bürosu" (Büro) ölkədə fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları (BOKT) ilə Büroya üzvlüklə bağlı müqavilələrin imzalanması prosesini başa çatdırıb. Müvafiq müqavilələr kredit tarixçəsini təşkil edən məlumatların kredit təşkilatları tərəfindən Büroya təqdim edilməsi və Bürodan əldə edilməsi qayda və prosedurlarını əhatə edir.

Büro 06.03.2018-ci il tarixindən Kredit təşkilatları ilə məlumat mübadiləsinə başlamışdır.

Bununla əlaqədar "Kredit büroları haqqında" Qanunla müəyyən edilmiş təşkilatlara Büro ilə əməkdaşlıq məqsədilə müraciət olunmuşdur.

Kredit təşkilatları ilə yanaşı, artıq ölkədə fəaliyyət göstərən 21 sığorta və 1 təkrarsığorta şirkəti ilə müvafiq əməkdaşlığı nəzərdə tutan müqavilələrin bağlanmasına nail olunmuş və yaxın müddət ərzində bütün sığorta şirkətlərinin Büronun xidmətlərindən istifadə etməsi planlaşdırılır. "Azərbaycan Kredit Bürosu" MMC ölkədə fəaliyyət göstərən 8 bankın - "Azərbaycan Beynəlxalq Bankı", "Bank Respublika", "Xalq Bank", "Kapital Bank", "PAŞA Bank", "Rabitəbank", "Unibank" və "Ziraat Bank Azərbaycan" ASC-lərin təşəbbüsü ilə 15 yanvar 2018-ci il tarixində yaradılmışdır.

Büro müştərilərin kredit tarixçəsini təşkil edən məlumatları, kredit təşkilatları ilə yanaşı, daha geniş mənbələrdən, o cümlədən lizinq, sığorta, kommunal xidmətlər göstərən müəssisələrdən, mobil telefon operatorlarından, borc öhdəliyi ilə bağlı digər məlumat bazalarından toplanması, saxlanması, təhlili, kredit hesabatlarının formalaşdırılmasını, habelə borcalanlara fərdi reytinqlərin verilməsi və digər əlavə dəyər yaradan xidmətlərin həyata keçirilməsini təmin edəcək.

**«Xəzər-Lada» Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə: 2018-ci il aprelin 25-də saat 12:00-da Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi, 16 km-də «Xəzər-Lada» ASC-nin akt zalında səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.**

## Yığıncağın gündəliyi:

1. İllik hesabat;
2. Dividendlərin verilməsi;
3. Mükafatlandırma haqqında;
4. Kənar auditorun təsdiq edilməsi.

**Səhmdarlar yığıncağın gündəliyi və materialı ilə cəmiyyətin mühasibatlığında tanış ola bilərlər.**
**Ümumi yığıncağa şəxsiyyət vəsiqəsi ilə gəlmək xahiş edilir.**

**İdarə heyəti**

# Novruz çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür




**Yel çərşənbəsi**

Novruz bayramı ərəfəsində keçirilən üçüncü çərşənbə yel çərşənbəsidir. Əgər torpaq və su insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılmasında kənar vasitəçi statusunda çıxış edir. Yaradılış mifologiyasında torpaqla suya daha çox statiklik, donuqluq, yellə oda isə dinamiklik, hərəkət xasdır. Yelli çərşənbə, küləkli çərşənbə, hava çərşənbəsi, külək oyadan çərşənbə də adlandırılan yel çərşənbəsi yelin təzəcə çıxmış otları oyadaraq, Novruzun gəlişi barədə xəbərdar etməsi ilə bağlıdır. Yel çərşənbəsində, adətən hava təmizlənir. Bu çərşənbədə əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Qədim adətə görə, yel çərşənbəsində qəfəsdə saxlanılan quşları və heyvanları azadlığa buraxmaq lazımdır.

**Torpaq çərşənbəsi**

Sonuncu, ilaxır çərşənbə torpaq çərşənbəsidir. Torpaq insan yaradılışının maddi əsası olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Yazda torpağın oyanmasının mifik kökləri dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Sonuncu çərşənbə artıq yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir. Bu çərşənbə torpağın və özündən əvvəlki 3 mühüm ünsürün - su, od və yelin oyanmasına, əkinçik həyatının başlanmasına işarədir.

**Novruz atributları**

Novruz bayramının əsas atributlarından biri **yumurtadır.** Çox qədimdən yumurtanı həyatın, canlılığın rəmzi hesab etmişlər. İbtidai təsəvvür və etiqada əsasən, yumurta ulu tanrının bəşəriyyətə bəxş etdiyi dörd əsas maddi nemət olan hava, su, torpaq və odla mənalandırılır. Yumurtanın dairəviliyi və qabığı torpağı, pərdəsi havanı, ağı suyu, sarısı isə odu simvollaşdırır. Məhz bu əlamətlərinə görə yumurtadan bir çox bayram və mərasimlərdə istifadə etmişlər.

Novruz bayramının ən maraqlı simvollarından biri də **səmənidir**. Yazın ilk müjdəçisi olan səməni, bir növ təbiətin yenidən canlanmasını göstərir.

Əvvəllər səmənini yazda səpiləcək toxumun yaxşı olub-olmadığını yoxlamaq üçün göyərdirlərmiş. İnanırdılar ki, səməni yaxşı cücərsə, məhsul bol olacaq.

Hətta bəzi müəlliflər öz əsərlərində «səməni» sözünü "çəmən" və «saman» sözüylə əlaqələndirirlər. Bu qəbildən olan sözlərə hindlilərin «sumani» - buğda sözünü, rusların «semena» - toxum sözlərini də aid etmək olar.

Novruz bayramı ərəfəsində, xüsusilə çərşənbələrdə **tonqallar** da yandırılır və "ağırlığım-uğurluğum odda yansın" deyilərək üzərindən tullanırlar. İlaxır çərşənbədə süfrədə **şamların** qoyulması mütləqdir. Yeməklərin şahı **plov** da süfrədə mütləq olmalıdır, çünki düyü bərəkət rəmzidir. Axır çərşənbəyə bir neçə gün qalmış evlər təmizlənər, küsülülər barışar. Deyilənə görə, bu bayramda təzə paltar geyinmək uğur gətirər. Axır çərşənbə gününün ertəsi günü ev sahibi bir ovuc buğda götürüb evin damına atar və bununla da evinə bərəkət, bolluq arzu etmiş olar. İlaxır çərşənbədə niyyət edib qapı pusar, niyyətləri ilə evdən eşitdikləri sözlər arasında müəyyən uyğunluqlar tapmağa çalışarlar. Bu uyğunluq tapılarsa, o zaman arzularının reallaşacağına inanarlar. Düzdür, tez-tez fala inan, faldan qalma desək də, Novruz bayramında belə adət-ənənələr hər kəsə maraqlı gəlir.

Ümumiyyətlə, Novruz əsrlərin dərinliyindən bugünümüzə qədər gəlmiş ən şən və gözəl bayramlardan biridir. Novruz bayramının xalqımızın mənəvi varlığında böyük rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev də bu bayramın qədimliyi və mədəni mahiyyəti haqqında demişdir: "Milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir".

**Mətanət**

# USTALARIN QAYĞISINA QALAN "MƏTANƏT A"




"Mətanət A" Şirkəti öz ənənəsinə sadiq qalır. Bu dəfə də Şirkət peşəkar ustalar üçün özünəməxsus maarifləndirici tədbir təşkil edib. "Qayğımıza qalan FasNatural" adlı təlimdə Azərbaycanın ilk "Ustalar Klubu"nun fasad üzrə ixtisaslaşmış 100-ə yaxın üzvü iştirak edib. Ustalara "Mətanət A" Şirkətinin istehsal etdiyi və dünyanın 150-yə yaxın ölkəsində patentləşdirilmiş "FasNatural"məhsulu ilə bağlı məlumat verilib. Bildirilib ki, "FasNatural"dan hazırlanmış bloklar və ornamentlər binaların fasadının örtülməsi və paduqaların hazırlanması üçün istifadə edilir. "FasNatural" aqlay daşını əvəz edir, su hopmur, şaxtada çatlamır, məhsulun müqaviməti təbii daşa nisbətən daha yüksəkdir, fasadın yükünü 11 dəfəyə kimi azaldır, vizual görüntü baxımından təbii daşdan seçilmir, ən əsası isə daha ucuz başa gəlir.

"İlin ixtirası" nominasiyası üzrə "Uğur" Milli Mükafatına layiq görülmüş "FasNatural" məhsulunun tətbiqi prosesi tədbir iştirakçılarına əyani nümayiş etdirilib, ustaların suallarını "Mətanət A"-nın peşəkar mütəxəssisləri cavablandırıb. Bu tədbirdə Şirkət daha bir İLKƏ imza atıb - ustalara "FasNatural" BONUS KARTları təqdim olunub. Bu kartlar ustalara xüsusi bonuslardan yararlanmaq imkanı verir. Təlimi uğurla başa vuran ustalar isə sertifikatlarla təltif ediliblər.

Qeyd edək ki, "Mətanət A" Şirkəti inşaat sahəsində çalışan ustaların bilik və bacarıqlarının inkişaf etdirilməsinə daim böyük diqqət yetirir və bu sahədə çoxşaxəli fəaliyyəti ilə seçilir. Bunun bariz nümunələrindən biri 14 ildir uğurla fəaliyyət göstərən "Mətanət A"-nın "Ustalar Klubu"dur. Klubun əsas məqsədi ustaların bilik və bacarıqlarını inkişaf etdirmək, onların işlə təmin olunmasına dəstək göstərməkdir. Şirkət bu sahədə fəaliyyətini bundan sonra da davam etdirmək niyyətindədir.

KİVDF

# Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkilatçılığı ilə fərdi jurnalist yazıları müsabiqəsi elan edilmişdir.

Mövzusu "Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: görülmüş işlər, real vəziyyət və perspektivlər" olan müsabiqənin məqsədi Suraxanı rayonunun sosial-iqtisadi və ictimai həyatındakı proseslərin ictimaiyyətə daha yaxından çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbulu qaydaları, tələb olunan sənədlər, qiymətləndirmə meyarları ilə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.

**Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat);**
**II yer üçün 2 nəfər (800 manat);**
**III yer üçün 3 nəfər (600 manat)**

yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.




# Bakcell şirkəti daha bir universitetdə əmək yarmarkasına qatılıb

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell Qərbi Kaspi Universitetinin təşkil etdiyi əmək yarmarkasında iştirak edib. Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır. Bu fəaliyyətin davamı olaraq Bakcell mart ayının 10-da Qərbi Kaspi Universitetinin təşkil etdiyi əmək yarmarkasında iştirak edib. Müxtəlif sahələri təmsil edən 50-dən artıq nüfuzlu şirkətin iştirak etdiyi əmək yarmarkasında universitetin tələbə və məzunlarına Bakcell şirkətinin satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Həmçinin, gənclər Bakcell şirkətinin öz müştərilərinə və xidmətlərinə innovativ yanaşma üsulları barədə geniş məlumatla tanış olublar. Karyera sərgisindəki Bakcell stendi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.




Qeyd etmək lazımdır ki, Bakcell və Qərbi Kaspi Universiteti arasında 14 dekabr 2017-ci il tarixində imzalanmış Anlaşma Memorandumuna əsasən, tərəflər arasında elm, təhsil, kadr məsələləri və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın qurulması nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində görüləcək işlər ölkəmizdə təhsil və iqtisadiyyatın inkişafı üçün faydalı olmaqla yanaşı, Azərbaycan gənclərinin əmək bazarına uyğun mütəxəssis olaraq yetişdirilməsinə töhfə verəcək.

Bakcell şirkətinin gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərir və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500